RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 160 (8476) ŞƏNBƏ, 15 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Birliyin və qardaşlığın parlaq təzahürü

## İlham ƏLİYEV: “Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur”

**Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın türk dövlətləri ilə bütün sahələrdə sıx münasibətləri formalaşıb. Bu dövlətlər arasında Türkiyə ilə əlaqələr xüsusilə qeyd olunmalıdır. Hansı ki, bu əlaqələrin dünyada ikinci oxşar analoqunu tapmaq mümkün deyil. Tarixin sınaqlarından çıxan bu qardaşlıq əlaqələri həm də strateji xarakter daşıyır.**

### Tovuz döyüşlərində Azərbaycanı ilk və birmənalı şəkildə dəstəkləyən Türkiyə oldu

Təsadüfi deyil ki, Azərbaycan-Türkiyə əlaqələrindən söz açdıqda diqqəti cəlb edən əsas məsələ əməkdaşlığın genişləndirilməsi və ya dərinləşdirilməsi deyil, bu iki türk dövləti arasındakı dostluq və qardaşlıq münasibətlərinin özünün ən yüksək zirvəsinə çatmasının müzakirə mövzusu olmasıdır. Bu münasibətlərdə hər hansı boşluq tapmaq isə mümkün deyil.

Məhz dostluq və qardaşlıq əlaqələrindən irəli gələrək Türkiyə Dağlıq Qarabağ məsələsində ilk gündən Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və işğalçı Ermənistanla heç bir siyasi-diplomatik münasibət qurmur. Ötən ay Tovuzda Ermənistanın hərbi təxribatının baş verməsindən sonra Türkiyənin siyasi və hərbi rəhbərliyinin qətiyyətli və kəskin bəyanatları bir daha göstərdi ki, qardaş dövlət Azərbaycanı heç vaxt tək qoymayacaq. Avqustun 13-də Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güleri və qoşun növləri komandanlarını qəbul edən Prezident İlham Əliyev bildirib ki, münasibətlərin bu səviyyəsi bizim bir-birimizə nə qədər yaxın olduğumuzu göstərir: “Bir ay bundan öncə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi hücumu nəticəsində hərbçilərin və mülki şəxsin həlak olması bir daha göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Bizi ilk və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan, hörmətli cənab nazir, siz, Xarici İşlər naziri, digər vəzifəli şəxslər bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermisiniz ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və hər zaman Azərbaycanla bir yerdə olacaqdır. Bu, bizi daha da ruhlandırır və yenə də bizim bir-birimizə nə qədər yaxın olduğumuzu göstərir”.

### Təlimlərin intensivliyi bundan sonra daha da artacaq

Azərbaycanla Türkiyə arasındakı sıx münasibətlərin ən mühüm göstəricilərindən biri dərin hərbi əməkdaşlıqdır. Hərbi gücünə görə NATO-nun liderlərindən olan Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində uzun illərdən bəri dərin əməkdaşlıq mövcuddur. Türkiyə hərbçiləri hələ ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycan Silahlı Qüvvələrinin təlim-təhsil işində yaxından iştirak etməyə başlamış, sonralar hərbi əlaqələr bir çox sahələri əhatə etmişdir. Türkiyə dövləti Azərbaycan Silahlı Qüvvələrinin NATO-nun standartlarına uyğunlaşdırılmasına, müdafiə sənayesi kompleksinin inkişafına mühüm töhfələr verib. Qarşılıqlı etimada əsaslanan hərbi əlaqələr həm də bölgədə sülhün, sabitliyin, davamlı inkişafın və iki dövlətin xalqlarımızın rifahının təmin olunması baxımından əhəmiyyət kəsb edir.

İndi iki ölkənin hərbi əməkdaşlığı müdafiə sahəsinin demək olar ki, bütün istiqamətlərini əhatə edir. Bu sırada hər il keçirilən birgə təlimlər xüsusən aktuallığı ilə diqqəti cəlb edir. Ona görə ki, ilk növbədə Türkiyə NATO-nun üzvüdür, həm də hərbi gücünə görə əksər üzv dövlətlərdən öndədir.

Ardı 3-cü səh.



## Qətiyyətli və prinsipial lider örnəyi

### Prezident İlham Əliyev müstəqil siyasəti, cəsarətli fikirləri ilə hər zaman milli maraqların bir nömrəli müdafiəçisi olduğunu təsdiqləyir

**Koronavirus pandemiyası ilə mübarizədə müsbət dinamikanın əldə edilməsi ölkə ictimaiyyətində nikbinlik yaratsa da, son günlər Rusiya Federasiyasından işğalçı Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter alması ölkə ictimaiyyətində ciddi narahatlıq doğurub.**

Hər zaman xalqı narahat edən istənilən prosesə dərhal münasibət bildirərək məsələnin həlli istiqamətində qətiyyətli qərarlar qəbul edən Prezident İlham Əliyev yenə də hər zamankı siyasətinə sadiqliyini nümayiş etdirdi.

### Rusiya Ermənistana başqa ölkələr vasitəsilə silah göndərir

Öncə onu qeyd edək ki, təsdiq edilən faktlara əsasən, Tovuz istiqamətində ağır döyüşlərin getdiyi bir vaxtda iyulun 17-də Rusiyadan Ermənistana 2 yük təyyarəsi həcmində təcili kodu ilə silah-sursat daşınıb. Hərbi yüklərin daşındığı marşrut isə birbaşa rəsmi qeydlərdə də öz əksini tapıb.

Ardı 3-cü səh.

## Prezident İlham Əliyev antiböhran tədbirlərini inamla reallaşdırır

**Dünya iqtisadiyyatının koronavirus pandemiyası ilə bağlı itkiləri qəfil zərbə təsiri bağışlayır və yüz milyardları aşaraq trilyonlarla ölçülür. “Şok effekti verən bu rəqəmin 2020-ci ildə bir trilyon dollardan artıq olacağı gözlənilir”.**

Bu ilin fevralında “Oxford Economics”in analitiklərinin gəldiyi qənaət belə idi. İlin əvvəlində ekspertlər hesab edirdilər ki, pandemiyanın yeni dalğası baş verərsə, daha ağır nəticələrlə üzləşmək təhlükəsi qaçılmaz olacaq.

Mart ayında isə BMT-nin ticarət və inkişafla bağlı məruzəsində dünya iqtisadiyyatının itkilərinin “Oxford Economics”dən fərqli olaraq iki dəfə artıq - 2 trilyon ətrafında olacağı göstərilirdi.

“Bloomberg” tədqiqatlarında göstərirdi ki, dünya iqtisadiyyatının itkiləri enerji daşıyıcıları bazarında yaranan böhran, müəssisələrin işçilərinin kütləvi işə çıxa bilməməsi, istehsalın bağlanması, turizmin bir sahə kimi müvəqqəti dondurulması, nəqliyyatın dayanması, yüklərin daşınmasının və investisiya qoyuluşlarının kəskin azalması ilə bağlı olacaq. Bu ilin aprelində isə Beynəlxalq Valyuta Fondu pandemiyanın dünya iqtisadiyyatını 2020-ci ildə 3 faiz azalda biləcəyini elan etdi. “BLOMBERQ” mart ayında bir daha bu mövzuya qayıdaraq pandemiyadan yaranan qlobal itkilərin 5 trilyona çatacağını bildirdi.

Belə mürəkkəb vəziyyətdə hər dövlət öz yolunu axtarır, yeni iqtisadi kursunu təyin edir. Lakin reallıq ondan ibarətdir ki, zəiflər çökür və güclülərin qazanmaq şansı artır.

Azərbaycan da dünyada gedən proseslərdən kənarda deyil. Ciddi karantin rejiminin müəyyən müddət uzadılması iqtisadi fəallığa təbii olaraq mənfi təsir göstərmişdir. Hazırda mövsümdən asılı olan ticarət və iaşə obyektlərinin fəaliyyətində, məlum quraqlıq üzündən kənd təsərrüfatı sahəsində yeni proqnozlar verilir.

Ardı 3-cü səh.

## “Koronavirus pandemiyası: elmi tədqiqatlardan sağlam gələcəyin təminatına doğru”

Hazırkı dövrdə ölkədə COVID-19 pandemiyası ilə əlaqədar aparılan elmi-tədqiqatların vəziyyətinin qiymətləndirilməsi, müvafiq yol xəritəsinin müəyyənləşdirilməsi, ilkin nəzəri və kliniki nəticələrin elmi ictimaiyyətin nəzərinə çatdırılması üçün alim və mütəxəssisləri vahid virtual məkanda toplamağa olan ehtiyacı nəzərə alaraq Azərbaycan Milli Elmlər Akademiyası müvafiq problemlər üzrə beynəlxalq onlayn konfrans keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Azərbaycanı, eləcə də ABŞ, Birləşmiş Krallıq, Fransa, Cənubi Koreya, Türkiyə və İranı təmsil edən 250-dən çox alim və mütəxəssisin iştirakı ilə 4-6 avqust tarixlərində baş tutmuş konfransda 9 plenar və 36 simpoziumal məruzə dinlənilmişdir. Sonda konfrans iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanmışdır.

COVID-19 koronavirus pandemiyası aylardır bütün dünyanı gərgin vəziyyətdə saxlamaqdadır. Bu günə kimi planetdə 20 milyona qədər insan bu xəstəliyə yoluxmuş, onlardan 750 minə yaxını həyatını itirmişdir. Bəşəriyyətin pandemiyaya qarşı mübarizəsi ciddi şəkildə davam etsə də, hələ ki, nə yayılmanı dayandırmaq, nə də xəstəliyə qarşı effektiv vaksin və dərmanların hazırlanmasında ciddi uğurlar əldə etmək mümkün olmamışdır.

Pandemiyanın elan edildiyi vaxtdan bu günə qədər onunla mübarizədə fərqlənən, ona qarşı vaxtında və effektiv tədbirlər görən ölkələr sırasında Azərbaycan Respublikası da yer almışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında müdriklik və uzaqgörənliklə həyata keçirilmiş çoxşaxəli qabaqlayıcı tədbirlər, pandemiyanın iqtisadiyyata vurduğu zərbələr fonunda insanların sağlamlığı və sosial təminatının ön plana çəkilməsi ölkəmizi gözəgörünməz düşmənin ilk həmlələrindən xilas edə bilmişdir.

Ardı 4-cü səh.

## Paşinyana olan ümidlər tükənib

### Korrupsiya Ermənistanın tənəzzülünü sürətləndirir

Ermənistanda korrupsiya erməni xalqının həyatını məhv etməkdədir. İndi işğalçı ölkədə elə bir yüksəkçinli məmur yoxdur ki, şəxsi biznesi olmasın, yaxud da vəzifədə olarkən digər yollarla böyük sərvət toplamasın. Son illər ərzində milli sərvətlərin yarıdan çoxu mütəmadi və sistematik şəkildə oğurlanmaqdadır.

Qarşıdakı dövr ərzində isə Ermənistanda sosial-iqtisadi vəziyyətin daha da pisləşməsi gözlənir ki, bunun da fonunda cinayət hallarının miqyasının əhəmiyyətli dərəcədə genişlənməsi istisna olunmur. Ermənistanda, ilk növbədə, mülkiyyətlə bağlı cinayətlərin sayının daha da artacağı gözlənilir və belə cinayətlərə maddi vəziyyəti ağır olan xeyli sayda insanın cəlb olunma ehtimalının kifayət qədər böyük olacağı artıq erməni sosioloqları tərəfindən də istisna edilmir. Bütün bunların fonunda kriminallaşan erməni cəmiyyətinin məhvi prosesinin daha da tezləşməsi isə qaçılmazdır.

“4rd.am” saytı yazır ki, Ermənistan ən çox korrupsiyalaşmış ölkələr sırasında qalmaqda davam edir. Beynəlxalq təşkilatların işğalçı ölkədə korrupsiya faktları ilə bağlı hesabatında bildirilir ki, bu ölkədə korrupsiya halları ötən iki ildə də azalmayıb, əksinə, artıb. Bu xoşagəlməz halla bağlı mübarizə tədbirləri hələ də kağız üzərindən əməli işə keçməyib.

Ardı 5-ci səh.

## Azərbaycan Respublikası Prezidentinin "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli 832 nömrəli, "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli, "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2004-cü il 11 noyabr tarixli 517 nömrəli, "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" 2007-ci il 27 iyul tarixli 2288 nömrəli, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli, "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2012-ci il 2 iyul tarixli 2320 nömrəli və "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında" 2014-cü il 14 fevral tarixli 273 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 409; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743) 29-cu hissəsinin "Tədbirlər" sütununda "müharibədə əlil olmuş" sözləri "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə və "iştirak edərkən əlil olmuş" sözləri "iştirakla əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 582; 2010, № 2, maddə 80; 2016, № 6, maddə 1028; 2019, № 5, maddə 911) ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın III hissəsinin 15-ci bəndində "Əlil" sözü "Əlilliyi olan" sözləri ilə və "xüsusi əlil arabalarına" sözləri "əlilliyi olan şəxslər üçün arabalara" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 517 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 940; 2005, № 7, maddə 596; 2006, № 9, maddə 743; 2007, № 2, maddə 87; 2008, № 3, maddə 168; 2009, № 4, maddə 226; 2010, № 2, maddə 80; 2011, № 2, maddə 85; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1464) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər" hissəsinin 6.2-ci bəndinin "Tədbirin adı" sütununda "qocalar və əlillər üçün internat evlərində" sözləri "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 iyul tarixli 2288 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 724; 2008, № 5, maddə 373; 2010, № 2, maddə 80) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın III hissəsinin dördüncü abzasında "əlil, sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217; 2012, № 12, maddə 1322; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2018, № 11, maddə 2378; 2019, № 2, maddə 257, № 5, maddə 877) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. ikinci fəslin birinci abzasının birinci cümləsində "əlillər" sözü "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

5.2. 2.8-ci bənddə "Əlillərin və sağlamlıq imkanları məhdud" sözləri "Əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri ilə əvəz edilsin;

5.3. 4.8-ci bənddə "əlillər" sözü "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin.

6. "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 708; 2013, № 12, maddə 1601; 2014, № 4, maddə 437; 2016, № 1, maddə 133; 2018, № 4, maddə 747; 2019, № 4, maddə 708) 1-ci hissəsində "əlilləri" sözü "ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 161) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın 5.2-ci bəndinin yeddinci abzasında "əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər" sözləri "əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" 2014-cü il 18 mart tarixli 347 nömrəli, "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli 569 nömrəli, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 26 yanvar tarixli 998 nömrəli, "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 14 fevral tarixli 3672 nömrəli və "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 10 may tarixli 64 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 292; 2016, № 7, maddə 1297; 2019, № 3, maddə 443) adında və 1-ci hissəsində "zamanı əlil olmuş" sözləri "ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 700; 2019, № 1, maddə 130) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 1-ci hissədə "əlil olmuş" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

2.2. preambulanın birinci və ikinci abzaslarında "əlil olmuş" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə, "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 yanvar tarixli 998 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 42; 2019, № 5, maddə 899; 2020, № 4, maddə 431) ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın 3.2.16-cı və 5.2.25-ci yarımbəndlərində "və əlil" sözləri "18 yaşınadək və əlilliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2413; 2019, № 5, maddə 899) ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. beşinci abzasın ikinci cümləsində "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" sözləri "Əlilliyi olan şəxslərin hüquqları haqqında" sözləri ilə əvəz edilsin;

4.2. səkkizinci abzasın dördüncü cümləsində "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

4.3. on ikinci və on üçüncü abzaslarda "əlilliyi olan uşaqların" sözləri "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 275; 2019, № 5, maddələr 877, 899) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 2.1-ci bəndində, 2.1.8-ci, 3.1.13-cü (hər iki halda) yarımbəndlərində, "Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 5.1.1.3-cü yarımbəndində hər üç halda "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 may tarixli 64 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1002) ilə təsdiq edilmiş "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2-ci hissənin 2.2.4-cü yarımbəndində " və sağlamlıq imkanları məhdud olan" sözləri ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri ilə əvəz edilsin;

6.2. 5-ci hissənin 5.1-ci bəndində, 5.1.1-ci, 5.1.2-ci, 5.2.5-ci, 5.2.6-cı yarımbəndlərində, 5.3-cü, 5.4-cü bəndlərində, 5.4.1-ci və 5.4.2-ci yarımbəndlərində, 5.5-ci bəndində, 5.5.3-cü və 5.6.4-cü yarımbəndlərində "məhdud olan" sözləri "məhdud 18 yaşınadək" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

# İtaliya mətbuatı Prezident İlham Əliyevin "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimindəki fikirlərinə geniş yer ayırıb

**İtaliyanın "Notizie Geopolitiche", "Kmetro0", "Sardegnagol", "Giornale Diplomatico", "Agenzia Nova", "Yahoo Notizie", "Finance Yahoo" kimi kütləvi informasiya vasitələri avqustun 10-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimindən sonra Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində qeyd etdiyi fikirlərə geniş yer ayırıblar.**







AZƏRTAC xəbər verir ki, həmin mətbuat orqanlarında dərc olunmuş yazılarda Prezident İlham Əliyevin fikirlərinə istinadən Azərbaycanın neft-qaz sənayesinə, neft-qaz potensialına xarici investorlar tərəfindən marağın artdığı qeyd olunur: "Bu, çox əlamətdar hadisədir. Bu gün "Qarabağ" yatağının dəniz işlərinə start verilir. Bu, yatağın işlənməsində çox önəmli mərhələdir. Bu nəhəng qurğu Azərbaycan mütəxəssisləri tərəfindən ölkəmizdə inşa edilibdir və bu gün artıq dənizə yola salınır. Əminəm ki, özülün üst hissəsi də vaxtında tikiləcək və beləliklə, biz "Qarabağ" yatağının tammiqyaslı işlənməsinə başlayacağıq", - deyə dövlət başçısının fikirlərindən sitat gətirilir.

Habelə vurğulanır ki, Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, 1990-cı illərdə Heydər Əliyev neft strategiyasının icrası nəticəsində bu yataqla bağlı hasilatın pay bölgüsü haqqında kontrakt imzalanmış, 1990-cı illərdə bu yataqda 3 quyu qazılmış, lakin xarici tərəfdaşlar "Qarabağ" yatağının səmərəliliyinə inanmamış, kontrakta xitam verilmiş və "Qarabağ" yatağı tərk edilmişdi. "Ancaq bizim mütəxəssislər tam əmin idilər ki, bu yatağın çox böyük potensialı var və həyat bunu təsdiqlədi. Bu il qazılmış dördüncü quyu səmərəli oldu və beləliklə, yataq tam kəşf edilmişdir", - deyə Prezident İlham Əliyev bildirir.

Məqalələrdə Prezident İlham Əliyevin bu fikirləri qeyd olunur: "Onu da bildirməliyəm ki, bu, müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağıdır. Çünki "Azəri", "Çıraq", "Günəşli" yataqları sovet dövründə kəşf edilmişdir. "Şahdəniz" və "Abşeron" yataqları qazkondensat yataqlarıdır. Neft yatağı olaraq bu, birinci yataqdır və bu nəhəng qurğu Xəzər dənizində inşa edilmiş ən böyük qurğudur. Ona görə bu layihənin əhəmiyyəti haqqında çox danışmaq olar. Əlbəttə ki, bu, bizim uğurlu siyasətimizin nəticəsidir. Çünki artıq 1994-cü ildən başlayaraq xarici neft şirkətlərinin Azərbaycanda böyük həcmdə sərmayə qoymalarına baxmayaraq, bu günə qədər Azərbaycanın neft-qaz sənayesinə, neft-qaz potensialına xarici investorlar tərəfindən maraq azalmır, əksinə, artır. Əminəm ki, növbəti illərdə "Qarabağ" və digər yataqlar uğurla istismar ediləcək və ölkəmizə böyük fayda verəcək".

İtalyan oxucuları "Cənub qaz dəhlizi"ndə görülən işlər barədə də məlumatlandırılıb. "Bizim indi əsas diqqətimiz "Cənub qaz dəhlizi"nin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, hesab edirəm ki, bir neçə aydan sonra Azərbaycan dövlətinin təşəbbüsü ilə və genişmiqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Beləliklə, "Cənub qaz dəhlizi" tam istismara veriləcək. Bu, bizim üçün çox önəmli və hesab edirəm ki, tarixi hadisədir. Çünki bu, imkan verir ki, "Şahdəniz" yatağının tam işlənilməsi təmin edilsin", - deyə dövlət başçısının fikirlərindən sitat gətirilir.

"Eyni zamanda, onu da bildirməliyəm ki, "Cənub qaz dəhlizi" inşa olunmadan investor buraya və heç bir başqa layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki, məsələn, "Abşeron" qazkondensat yatağından çıxarılacaq qazın ixracı üçün yol olmalıdır, həmçinin "Qarabağ" yatağından və digər yataqlardan çıxarılacaq təbii qazın da. Ona görə "Cənub qaz dəhlizi"nin əhəmiyyəti təkcə "Şahdəniz" layihəsi ilə məhdudlaşmır. Bu layihə icra olunmadan bizim enerji siyasətimiz yarımçıq qala bilərdi. Amma bu gün bizim enerji siyasətimiz ölkəmizin maraqlarını tam təmin edir. "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik. "Şahdəniz" qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılacaq. Əgər Albaniyada qaz şəbəkəsi yaranarsa, Albaniya da bizim təbii tərəfdaşımız olacaqdır, biz oraya da qaz ixrac edə bilərik. Digər qonşu ölkələrə - Balkan bölgəsində yerləşən ölkələrə Azərbaycan qazının verilməsi mümkündür", - deyə Prezident İlham Əliyevin fikirləri vurğulanır.

Məqalələrdə Avrasiyanın yeni enerji xəritəsinin tərtibində Azərbaycanın roluna da toxunulur və bununla bağlı Azərbaycan Prezidentinin çıxışından sitat gətirilir: "Ona görə "Cənub qaz dəhlizi" bizim tarixi nailiyyətimizdir və bunun başa çatmasına az vaxt qalır. Bir daha demək istəyirəm ki, bizim bütün yataqlarımızda görülən işlər məqsədyönlü şəkildə aparılır. Bir layihə o biri layihəni şərtləndirir. Əgər 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" üzrə kontrakt imzalanmasaydı, heç bir başqa layihədən söhbət gedə bilməzdi. Əgər "Şahdəniz" üzrə kontrakt imzalanmasaydı, bu gün biz, nəinki başqa ölkələrin, öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Çünki "Şahdəniz" bizim üçün əsas mənbədir. Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır".

Yazılar Prezident İlham Əliyevin "Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə - 1990-cı illərdə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" fikirləri ilə tamamlanır.

# Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivləri müzakirə olunub

**Avqustun 14-də Azərbaycan Respublikasının Baş Nazirinin müavini Şahin Mustafayev Avropa İttifaqının ölkəmizdəki nümayəndəsi Kestutis Yankauskas ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazirin müavini Şahin Mustafayev Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafının ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən olduğunu bildirib.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin bir çox sahələrdə, xüsusilə enerji, investisiya, ticarət və sair sahələrdə inkişaf etdiyi, Avropa İttifaqının ölkəmizin əsas ticarət tərəfdaşlarından olduğu qeyd edilib. Azərbaycanda Avropa İttifaqı ilə müxtəlif proqramlar və layihələr çərçivəsində də səmərəli əməkdaşlıq həyata keçirilir. Bu xüsusda su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi sahəsində Aİ ekspertləri cəlb edilməklə məlumat və təcrübə mübadiləsinin aparılması təklif olunub.

Görüşdə, həmçinin Aİ-Azərbaycan əməkdaşlığının gündəliyində duran bir sıra məsələlər, o cümlədən yeni hərtərəfli saziş üzrə danışıqların davam etdirilməsi və əlaqələrin perspektivləri müzakirə olunub.

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının ilk iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da keçirdiyi videomüşavirədə dövlət şirkətlərinin iqtisadi fəaliyyətinin səmərəliliyinin artırılması üçün idarəetmənin təkmilləşdirilməsinə ehtiyacın olduğunu bildirib və Nazirlər Kabinetinə müvafiq işlərin görülməsi üçün tapşırıq verib. Prezident İlham Əliyev avqustun 7-də Azərbaycan İnvestisiya Holdinqinin (AİH) yaradılması və Nizamnaməsinin təsdiq edilməsi haqqında fərmanı imzalanıb. Avqustun 12-də isə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının (AİH MŞ) tərkibi təsdiq edilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 14-də AİH MŞ-nin sədri, Baş Nazir Əli Əsədovun rəhbərliyi və Şura üzvləri - Azərbaycan Respublikası Prezidentinin köməkçiləri Şahmar Mövsümovun, Natiq Əmirovun, İqtisadiyyat naziri Mikayıl Cabbarovun və Maliyyə naziri Samir Şərifovun iştirakı ilə ilk iclası keçirilib.

Müşahidə Şurasının sədri və üzvləri göstərilən etimada görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Videomüşavirədə Azərbaycan Respublikası Prezidentinin fərmanından irəli gələn tapşırıqlar - korporativ idarəetmənin təşkili, səmərəli və şəffaf fəaliyyət, maliyyə sağlamlığının gücləndirilməsi, dayanıqlı inkişafın təmini və bəzi təşkilati məsələlər müzakirə olunub. Verilən tapşırıqların vaxtında və tam həcmdə icra olunması əsas tələb kimi qarşıya qoyulub.



İqtisadiyyat naziri Mikayıl Cabbarov AİH-nin təşkilati məsələləri və funksional fəaliyyət istiqamətləri barədə çıxış edib.

Müşahidə Şurasının sədri AİH-nin fəaliyyətinin tezliklə təmin olunması üçün görüləcək tədbirlərlə bağlı tapşırıqlar verib.

# Birliyin və qardaşlığın parlaq təzahürü

*Əvvəli 1-ci səh.*

Belə bir ölkənin ordusu ilə birgə hərbi təlimlərin keçirilməsi Azərbaycan Ordusunun ən müasir döyüş imkanlarını mənimsəməsində böyük rol oynayır.

Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən və illik plana uyğun olaraq iyulun sonundan başlayaraq hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirildi. Hərbi təlimlərin başlanması, xüsusən Azərbaycanda Türkiyə Ordusunun bölmələrinin qarşılanması, dövlət bayraqlarının dəyişdirilməsi mərasimi hər kəsi qürurlandırdı, duyğulandırdı. Bütün dünya gördü ki, Azərbaycan-Türkiyə qardaşlığı yalnız sözdə deyil. Bu qardaşlıq əməldə, bir-birinə dayaq durmaqda, dəstək verməkdədi.

Avqustun 13-də Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güleri və qoşun növləri komandanlarını qəbul edən Prezident İlham Əliyev təlimlərin intensivliyinin bundan sonra daha da artacağını bəyan etdi: "Bu təlimlərin uğurla keçməsi, əlbəttə, hesab edirəm ki, çox önəmli hadisədir. Bu təlimlər gələcəkdə də davam edəcək. Hesab edirəm ki, bu təlimlərin intensivliyi bundan sonra daha da artacaq, təbii ki, buna ehtiyac var".



### Düşmənə verilən mesaj

Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edildi. Plana əsasən, təlimlər quru qoşunlarının da cəlb edilməsi ilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçirildi.

Hər iki ölkə ordularının hərbi qulluqçuları və bölmələri yüksək peşəkarlıq və bacarıq göstərdilər, birgə fəaliyyətlərin planlaşdırılmasında və icrasında qərargahların və bölmələrin şəxsi heyəti əvvəlki təlimlərdə əldə etdikləri təcrübələrini artırdılar, milli maraqlardan irəli gələn strateji məqsədlərə nail olmaq üçün qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlməyə hazır olduqlarını nümayiş etdirdilər.

Onu da qeyd edək ki, iki ölkənin müdafiə sahəsində uğurlu əməkdaşlığının növbəti göstəricisi olan bu təlim miqyasına və qarşıya qoyulan vəzifələrə görə əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqləndi. Ona görə bu təlim Ermənistanın siyasi-hərbi dairələrində ciddi narahatlıqla qarşılandı. Ermənistanın hərbi-siyasi dairələrindən səslənən fikirlər də göstərdi ki, Azərbaycan-Türkiyə birgə təlimləri düşmən ölkəni ciddi şəkildə təşvişə salır.

Bu təlim Tovuz döyüşlərindən sonra düşmənə verilən növbəti hərbi-siyasi mesaj oldu. Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar isə Prezident İlham Əliyevlə görüşdə Azərbaycanın tək olmadığını bir daha bəyan edərək dedi: "Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik. Biz sülhün, sabitliyin tərəfdarıyıq. Təkcə ölkələrimizin təhlükəsizliyi, əmin-amanlığı mənasında deyil, bütün Qafqazın, bütün bölgənin sülh və əmin-amanlıq içərisində olmasının tərəfdarıyıq. Digər tərəfdən, haqqımızın, hüququmuzun, mənafelərimizin də tapdalanmasına imkan verməyəcəyimizi, bunların qorunması üçün lazım olan nə varsa edəcəyimizi hamının bilməsini istəyirik".

Silahlı Qüvvələrimizin tez-tez həyata keçirdiyi hərbi təlimlər düşmənin dincliyini pozan əsas amillərdən biridir. Nəticələr göstərir ki, ordumuzun bütün bölmələri istənilən situasiyada qarşısında dayanan vəzifələri layiqincə icra etməyə qadirdir. Hazırda Cənubi Qafqazın ən qüdrətli hərbi gücünə malik Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Bu baxımdan ən müasir döyüş imkanlarına malik olan Azərbaycan Ordusunun hər bir təliminin məqsədinin nə olduğunu Ermənistanda yaxşı anlayırlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyev antiböhran tədbirlərini inamla reallaşdırır

*Əvvəli 1-ci səh.*

Obyektiv səbəblərə görə, ölkədaxili və xaricdən gələn turizm axınının dayanması müvafiq sektorların işini çətin vəziyyətə salmışdır. Enerji bazarlarının da tam bərpa olunmaması obyektiv çətinliklər yaratmaqdadır.

Prezident İlham Əliyev bütün vacib yeni təyinatları zamanı keçirdiyi videoqəbullarda, beynəlxaq miqyaslı konfrans və tədbirlərdə vəziyyətlə bağlı mövqeyini açıqlayır, qiymətləndirmələr verir, çıxış yollarını göstərir.

Bu il avqustun 6-da dövlət başçısı ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı keçirdiyi videoformat çərçivəsindəki müşavirədə bu mövzuya bir daha toxunmuş, ən kritik ssenarilərə hazır olmağın vacibliyini dilə gətirmişdir.

Pandemiya dalğasının hələ geri çəkilməməsinə baxmayaraq, Azərbaycanda sosial məsələlər ardıcıl və sürətlə həll edilir. Prezident bunu belə izah edir: "Biz təqribən 5 milyona yaxın insanı geniş sosial paketlə əhatə etdik. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Əks təqdirdə 760 min insan işsiz qala bilərdi. Çünki onların çalışdıqları sektorlar pandemiya nəticəsində ən böyük zərər görmüş sektorlardır. Təbii ki, sahibkarlar, işəgötürənlər indi gəlir əldə etmirlər və beləliklə, yüz minlərlə insan işsiz qala bilərdi. Yenə də dövlət operativ tədbirlər nəticəsində dərhal bu məsələyə müdaxilə etdi. Əlbəttə ki, bu məqsədlər üçün böyük maliyyə resursları xərclənibdir".

Həqiqətən 2020-ci ildə sosial layihələrin həcmi rekord həddə çatmış və onların heç biri yarımçıq qalmamış və ixtisar edilməmişdir. Bu il 7 mindən çox - rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Yenə də rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcək.

Azərbaycan Prezidenti, həmçinin pandemiya şəraitində biznesə ciddi dəstək verilməsi üçün konkret tədbirlər görür. Bu il yazın əvvəlində koronavirus pandemiyasının dünyanın enerji bazarlarında törətdiyi şoklar bütün ölkələri silkələdi. Yaranmış vəziyyət yeni düşüncə tərzinin, fərqli və operativ iqtisadi addımların atılması zərurətini yaratdı. Bütün dünya miqyasında iqtisadiyyatın bir çox sahələrində böhran yarandı, əksər ölkələr və nəhəng şirkətlər ağır zərbələrə məruz qaldılar.

Belə mürəkkəb şəraitdə Azərbaycan Prezidenti cəsarətli iqtisadi qərarlar verdi. Belə ki, ölkə iqtisadiyyatının qısamüddətli və ortamüddətli tədbirlər planının hazırlanmasına start verildi, iqtisadiyyat üzrə işçi qrupun proqramı təqdim edilərək təsdiqləndi. Bununla ölkədə makroiqtisadi sabitliyin qorunması üçün zəmin yaradıldı. Operativlik, çeviklik isə büdcə gəlirlərini ilin birinci yarısında tam icra etməyə və valyuta məzənnəsini sabit saxlamağa imkan verdi. Bunlardan əlavə, sosial infrastruktura qoyulan sərmayələrin həcmi qorunaraq icra olundu, dövlətin xarici və daxili borcu artmadı. Həmçinin vergi güzəştlərinə aid olan bütün tədbirlər qanunvericilikdə əksini tapdı, ipoteka proqramının genişlənməsinə dair tədbirlər həyata keçirildi, dövlət sektorunda fəaliyyət göstərən və bir sıra digər müəssisələrə iqtisadiyyata dəstək proqramı çərçivəsində kömək göstərildi.

Bununla belə, Prezident müşavirədəki yekun nitqində mövcud nöqsanlardan da danışdı: "...özəl sektorda əgər itki varsa, bu özəl sektorun subyekti müflisləşir, biznesini bağlayır və heç kim bunun köməyinə gəlmir. Amma dövlət şirkətləri öyrəşiblər ki, onların bütün qüsurları, bütün itkiləri dövlət tərəfindən bağlanacaq".

Göründüyü kimi, Prezident haqlı olaraq hesab edir ki, dövlət şirkətlərinin normal korporativ idarəetmə əsasında işləməmələri yolverilməzdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında növbəti məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin - Bakı Apelyasiya Məhkəməsinin sədri İ.Nağıyevin və Milli Məclis Aparatının rəhbəri S.Mirzəyevin, mütəxəssis Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri S.Hacıyevin yazılı mülahizələrini və işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsi xüsusi prosedur qaydalarını müəyyən edərək işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin statusunu və kassasiya instansiyası məhkəməsinin səlahiyyətlərini nəzərə alaraq göstərilən şəxslərin məhkəməyə müraciət etmək hüququnun təmin olunma vasitəsi kimi çıxış edir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Cəbhədə törədiləcək təxribatlara görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma kriminal rejimin nümayəndələrinin səsləndirdikləri fikirlərə münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma kriminal rejimin nümayəndələrinin səsləndirdikləri fikirlər heç bir mahiyyət kəsb etmir. Azərbaycanın Gəncə şəhərinin atəşə tutulması ilə bağlı Ermənistan tərəfindən irəli sürülən hədələr düşmənin növbəti hərbi avantürası olmaqla yanaşı, işğalçılıq siyasətinin göstəricisidir və bu, onların növbəti təxribat əməlləri törətmək niyyətindən xəbər verir.

Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə yaşayış məntəqələrimizi və dinc əhalini atəşə tutaraq bir nəfər kənd sakinini qətlə yetirən düşmən təxribatının qarşısı Azərbaycan Ordusunun bölmələri tərəfindən qətiyyətlə alındı.

Mülki obyektlərin və yaşayış məntəqələrinin hədəfə alınması Ermənistan silahlı qüvvələrinin standart praktikasıdır. 2016-cı il aprel hadisələri, Tovuz rayonu istiqamətində baş vermiş döyüş toqquşmaları zamanı da Ermənistan silahlı qüvvələri tərəfindən mülki obyektlərin hədəfə alınması və dinc sakinlərin qəsdən öldürülməsi kimi əməllərin şahidi olduq.

"Bir daha qətiyyətlə bildiririk ki, Azərbaycan Ordusu Ermənistanın bütün atəş nöqtələrini, hərbi dayaq məntəqələrini və digər legitim hərbi hədəflərini məhv etmək potensialına malikdir və buna qadirdir. Ermənistanın hər bir təxribatının qarşısı Tovuz döyüşlərində olduğu kimi, qətiyyətlə alınacaq və bu kimi təxribatların törədilməsinə görə bütün məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək, - deyə Müdafiə Nazirliyinin məlumatında xüsusi vurğulanıb.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması bəyanat yayıb

Ermənistan KİV-ində bu ölkənin işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı qondarma rejimin qondarma "strukturlarının" Xankəndindən Şuşaya köçürüləcəyi haqqında məlumat yayılıb. Şuşa Azərbaycan üçün böyük tarixi və mənəvi əhəmiyyətə malik bir şəhərdir və onun əsasının qoyulmasının 270 illiyi ərəfəsində işğalçı Ermənistanın növbəti təxribat cəhdini pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatında qeyd olunub. Bəyanatda daha sonra deyilir: "Biz belə təxribatların dəfələrlə şahidi olmuşuq. Bir müddət əvvəl Şuşanın Yuxarı Gövhər Ağa Məscidinin arxitekturasının təhrif edilərək "İran məscidi", rus kilsəsinin təhrif olunaraq "erməni kilsəsi" kimi qələmə verilməsi də bu qəbildən olan təxribatlardan idi. Bundan başqa, Ermənistan rəhbərliyi bir neçə ay əvvəl Şuşada qondarma "inauqurasiya" şousu təşkil etmişdi. Mütəmadi xarakter almış belə addımlar münaqişənin tənzimlənməsinə mane olmaqdan başqa heç nəyə xidmət etmir və beynəlxalq ictimaiyyət tərəfindən kəskin surətdə qınanılmalıdır.

Ermənistanın bu kimi təxribatçı və azğın əməlləri heç vaxt bizim öz ata-baba yurdlarımıza qayıtmaq əzmimizi qıra bilməyəcək. Dağlıq Qarabağın etnik təmizləməyə məruz qalmış azərbaycanlı icması torpaqlarımıza qayıdaraq Azərbaycan Respublikasının suverenliyinin təcəssümü olan qurumları təşkil edəcəkdir".

# Qətiyyətli və prinsipial lider örnəyi

*Əvvəli 1-ci səh.*

Rusiyanın Mineralnıy Vodı ərazisindən qalxan "İL-76" yük təyyarələri Qazaxıstan, Türkmənistan, İran ərazisindən keçməklə 2030 km məsafə qət edərək 3 saat yarımdan sonra Mehri və İrəvana çatıb. Bundan sonra isə ard-arda iyulun 18, 20, 27, 29 və avqustun 4-də 1 reys, avqustun 6-da isə 2 reys olmaqla Ermənistana 400 tondan artıq həcmdə hərbi yüklər çatdırılıb.

Bu hərbi yüklərdə Rusiyanın müasir, bahalı və real döyüş şəraitində effektiv radioelektron kəşfiyyat vasitələri olan "Krasuxa", "Avtobaza-M" və "Nebo-M" sistemlərinin olması isə Azərbaycanın narahatlığına səbəb olmaya bilməzdi. Məhz Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığını bu məsələlərin önə çıxarılması şərtləndirib.

Avqustun 12-də Vladimir Putinə zəng edən cənab İlham Əliyev məsələnin Azərbaycan ictimaiyyətində haqlı narahatlıq yaratdığını və ciddi suallar doğurduğunu söyləyib. Prezident rusiyalı həmkarının diqqətinə çatdırıb ki, Tovuz istiqamətində baş vermiş hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edilərək bu günə qədər Ermənistana 400 tondan artıq hərbi təyinatlı yüklər daşınıb. Bu da təbii ki, narahatlıq doğurmaya bilməz. Telefon zənginin də əsas məqsədi məhz bu məsələnin aydınlaşdırılması olub.

Cənab İlham Əliyev, eyni zamanda, Ermənistanın bu hərbi təxribatının əsas məqsədinin üçüncü tərəfləri münaqiyə cəlb etmək olduğunu Vladimir Putinin diqqətinə çatdırıb.

Bu addım bir daha təsdiq etdi ki, Azərbaycanın milli maraqlarına təsir edən hər bir məsələ Prezident İlham Əliyevin xüsusi nəzarətindədir və bununla əlaqədar istənilən ölkə, istənilən beynəlxalq qurum qarşısında məsələ qaldırılır, onların həllinə nail olunur. Yəni Azərbaycan Prezidenti hər zaman milli maraqlarımızı qətiyyətlə və xüsusi prinsipiallıqla müdafiə edir.

Ölkə ictimaiyyəti də bir daha gördü ki, cənab İlham Əliyev milli maraqlar naminə ciddi addımlar atır və istənilən dövlət başçısı ilə müzakirələrdə Azərbaycan üçün ümdə sayılan məsələləri qaldırmaqdan qətiyyən çəkinmir.

### İşğalçı ölkəyə dəstək həmsədrlik statusuna zidd addımlardır

Bu gün Azərbaycan bölgədə təhlükəsizlik və davamlı iqtisadi inkişaf üçün olduqca mühüm ölkə kimi çıxış edir. Rəsmi Bakının siyasi iradəsi, təşəbbüskarlığı, ölkəmizin iqtisadi gücü təkcə Azərbaycan üçün yox, bütün region üçün tənzimləyici və lokomotiv funksiyasını yerinə yetirir. Məhz bu siyasi kurs Azərbaycanı dünyada etibarlı tərəfdaşa çevirib.

Azərbaycanla Rusiya arasında əlaqələr uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. Bu gün bir-birinin suverenliyinə hörmətlə yanaşan Azərbaycan-Rusiya münasibətləri hər iki ölkənin milli maraqlarına xidmət edir. Bu, regional sabitliyin əsas faktorudur.

İki ölkənin dövlət başçıları arasındakı səmimi dostluq münasibətləri əlaqələrin son zamanlarda daha da inkişafını sürətləndirib. Strateji tərəfdaşlıq səviyyəsində inkişaf edən çoxşaxəli Azərbaycan-Rusiya münasibətləri hər iki ölkənin maraqları və ümumiyyətlə, regionun sabitliyi, habelə tərəqqisi üçün yeni imkanlar açıb. Bu əlaqələr regionda təhlükəsizlik və davamlı inkişaf meyillərini və maraqlarını gücləndirir.

Bu gün iki ölkə arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. 2018-ci ildə isə 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb. Bu sənəd, təbii ki, proqram xarakterlidir və əlaqələrin gələcək inkişafını özündə ehtiva edir. Planda əksini tapan 5 "yol xəritəsi" ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılmasını, nəqliyyat potensialının inkişafını, birgə müəssisələrin yaradılmasını, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsini, həmçinin humanitar əlaqələri nəzərdə tutur.

Hərtərəfli münasibətlərin inkişaf etdiyi bir zamanda Rusiyanın Ermənistanı silahlandırması Azərbaycan dövlətinin həmişə göstərdiyi dostluq və strateji qonşuluq münasibətlərinin ruhuna ziddir. Elə buna görə də Rusiyanın Ermənistanı silahlandırması böyük təəssüf doğurur. Çünki bu, açıq-aşkar işğalçı ölkəyə dəstəkdir və silahlandırma münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həllinə imkan vermir. Yəni bu proses mövcud status-kvonun saxlanmasına xidmət edir. Ermənistanın da istəyi məhz budur.

Onu da vurğulamaq yerinə düşər ki, Rusiya həm də ATƏT-in Minsk qrupunun həmsədridir. Yəni şimal qonşumuzun ardıcıl şəkildə Ermənistanı silahlandırması onun həmsədrlik statusuna, üzərinə düşən öhdəliklərə, həmçinin 2009-cu il iyulun 10-da ABŞ, Rusiya və Fransa prezidentlərinin "Böyük səkkizlik"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısı çərçivəsində imzalanan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı birgə bəyanatda, eləcə də 2010-cu il iyunun 26-da ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin prezidentlərinin Kanadanın Muskok şəhərində qəbul etdikləri birgə bəyanatda əksini tapmış mövcud status-kvonun qəbuledilməzliyi prinsipinə ziddir.

### Minsk qrupu həmsədrləri niyə və kimə lazımdır?

Faktlar təsdiq edir ki, Rusiya işğalçı Ermənistanı fasiləsiz olaraq silahlandırır. Bir neçə fakta nəzər yetirsək buna bir daha şahidlik etmiş olarıq. Məsələn, 1997-ci ildə general Lev Roxlin o zaman olduqca böyük miqdar hesab olunan 1 milyard dollarlıq silahın Rusiyadan işğalçı Ermənistana pulsuz olaraq verilməsini ifşa etmişdi. İndi də görünən odur ki, silahlar yenə işğalçı ölkəyə pulsuz verilir. Bu da, əlbəttə ki, Ermənistanın münaqişənin sülh yolu ilə həllində maraqlı olmadığını bir daha təsdiqləyir və hər zaman cəbhə xəttində təxribatlar törədə biləcəyini istisna etmir.

Bu da onu təsdiq edir ki, münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri indiyədək ortaya ciddi fəaliyyət qoya bilməyiblər. Prezident İlham Əliyevin bu qrupa həmsədrlik edənlər haqqında səsləndirdiyi bütün tənqidləri həmişə qətiyyətli və prinsipial xarakter daşısa da, yenə də onların fəaliyyətində dəyişikliyin olmadığını görürük. Bu da bir növ işğalçı Ermənistanın xeyrinə işləyən faktordur. Azərbaycan xalqı Ermənistana göstərilən bu isti münasibətə açıq-aşkar şahidlik edir.

Ona görə də, ölkə ictimaiyyəti hesab edir ki, əgər Minsk qrupu öz missiyasını həyata keçirə bilmirsə, o zaman həmsədrlərin əvəzlənməsi və bu qrupa üzv olan ölkələrdən digərləri həmsədrlik missiyasını öz üzərinə götürməlidir. Bu rola ən uyğun ölkə isə regionda tarixi-siyasi və mənəvi məsuliyyəti olan Türkiyə Cümhuriyyətidir. Hələ Minsk qrupu formalaşarkən əslində Türkiyənin həmsədrlərdən biri olması olduqca ciddi şəkildə müzakirə olunmuş, lakin təəssüf ki, baş tutmamışdı.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, 30 ildən çoxdur ki, işğaldan, təcavüzdən əziyyət çəkən bir xalq və dövlət olaraq vasitəçilik missiyasını üzərinə götürənlərdən, Minsk qrupundan aydınlıq, hesab tələb edir. Ancaq onların verəcəyi düzəməlli cavabları yoxdur, çünki bu illər ərzində heç bir əməli, real addımlar atmayıblar, malalayıcı, dişsiz mövqe sərgiləyiblər, Ermənistanın bütün təxribatlarını və finəkarlıqlarını görməzdən gəliblər. Bəs onda, 30 ildir Azərbaycanın işğal altında olan torpaqlarını geri qaytarması üçün Ermənistana heç bir təzyiq etməyən Minsk qrupu həmsədrləri niyə və kimə lazımdır?!

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# “Koronavirus pandemiyası: elmi tədqiqatlardan sağlam gələcəyin təminatına doğru”

*Əvvəli 1-ci səh.*

Koronavirus və onun yayılması nəticəsində yaranmış problemlərlə bağlı elmi ictimaiyyətin üzərinə çox böyük vəzifələr düşdüyü nəzərə alınaraq, Azərbaycan Milli Elmlər Akademiyasında və digər dövlət qurumlarının elmi tədqiqat müəssisələrində COVID-19 xəstəliyinə qarşı mübarizə istiqamətində ölkə Prezidentinin tapşırıqları ciddi şəkildə icra edilmişdir. Kütləvi informasiya vasitələrində, televiziya kanallarında, informasiya agentliklərinin bülletenlərində, internet portallarında, sosial şəbəkələrdə çoxsaylı məqalələr dərc olunmuş, müsahibələr verilmiş, müraciətlər edilmiş, geniş və əhatəli təbliğat və maarifləndirmə işləri aparılmışdır. Bu prosesə virusların tədqiqi, onlara qarşı vaksin və terapevtik dərmanların hazırlanması üzrə dünyanın aparıcı ölkələri və mərkəzlərində fəaliyyət göstərən azərbaycanlı alimlər də cəlb edilmişlər. Lakin bütün atılan addımlara baxmayaraq, dünyada olduğu kimi, Azərbaycanda da hələ ki, pandemiyaya tam qalib gəlmək mümkün olmamışdır.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu müvafiq problemləri əhatə edən “Koronavirus pandemiyası: elmi tədqiqatlardan sağlam gələcəyin təminatına doğru” mövzusunda beynəlxalq onlayn konfrans keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Bu təşəbbüs AMEA-nın rəhbərliyi tərəfindən müsbət qarşılanmış və onun keçirilməsinə hərtərəfli dəstək verilmişdir.

Konfransın mövzuları çox geniş olmuş, ən müxtəlif sahələri əhatə etmişdir. O cümlədən aşağıdakı əsas istiqamətlər müəyyənləşdirilmişdir:

- yeni pandemiya və epidemiya təhlükələrinin qarşısının alınmasında müasir elmi biliklərin və innovativ texnologiyaların tətbiqi, beynəlxalq əməkdaşlıq və milli biotəhlükəsizlik çağırışları;
- təkamül və epidemiologiya, gələcək risklər;
- viral müxtəliflik, koronaviruslar dünyası, onların təkamül dinamikası;
- yeni koronavirusların yaranması və onlara qarşı immunitetin inkişafı üçün populyasion genom tədqiqatları;
- COVID-19 pandemiyasının diaqnostika və müalicə üsulları;
- viruslara qarşı mübarizədə peyvəndlərin, antiviral dərmanların, bitki təbiətli birləşmələrin tətbiqi;
- epidemik alovlanmaların proqnozlaşdırılması, riyazi modellər;
- pandemiyalar və bioetik problemlər;
- mikrobiologiya, virusologiya və molekulyar biotexnologiya elmlərinin gələcək inkişaf perspektivləri.

Beynəlxalq konfransın işinin yüksək səviyyədə qurulması üçün AMEA-nın prezidenti akademik Ramiz Mehdiyevin sədrliyi ilə konfransın təşkilat komitəsi yaradılmışdır. Təşkilat komitəsinə AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova (sədr müavini), Azərbaycan Respublikası Milli Məclisi Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanov, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri, tibb üzrə fəlsəfə doktoru Ramin Bayramlı, AMEA prezidentinin müşaviri, akademik Əli Abbasov, Azərbaycan Tibb Universitetinin rektoru, tibb elmləri doktoru, professor Gəray Gəraybəyli, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin Baş direktoru, tibb üzrə fəlsəfə doktoru Natiq Xəlilov, Azərbaycan Respublikasının baş infeksionisti, tibb üzrə fəlsəfə doktoru Cəlal İsayev, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri AMEA-nın müxbir üzvü Nuru Bayramov, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun (MBBİ) laboratoriya müdiri AMEA-nın müxbir üzvü İlham Şahmuradov, Kembric Tibbi Tədqiqatlar Şurası Molekulyar Biologiya İnstitutunun (Birləşmiş Krallıq) qrup rəhbəri, MBBİ-də beynəlxalq laboratoriyanın müdiri professor Qərib Mürşüdov, ABŞ-ın İndiana Bioelmlər Tədqiqat İnstitutunun professoru, MBBİ-də beynəlxalq laboratoriyanın müdiri professor Vidadi Yusibov, TƏBİB-in Tibbi Profilaktika İnstitutunun direktoru professor Adil Allahverdiyev, Akdeniz Universitetinin (Türkiyə) professoru, MBBİ-də beynəlxalq laboratoriyanın müdiri, AMEA-nın müxbir üzvü Tərlan Məmmədov, Pusan Milli Universitetinin (Cənubi Koreya) tədqiqatçı-professoru, MBBİ-də beynəlxalq laboratoriyanın müdiri professor İsmayıl Zülfüqarov və digər tanınmış alimlər daxil olmuşlar.

Konfrans 4-5 avqust tarixlərinə planlaşdırılmış, lakin burada müzakirə edilən problemlərin, edilən plenar və simpoziumal çıxışların, xarici ölkələri təmsil edən alimlərlə birgə aparılan elmi diskussiyaların böyük maraq doğurması nəticəsində onun işi daha bir gün uzadılmışdır.

Konfransın 4 avqustda keçirilən açılış iclasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin, TƏBİB-in rəhbər şəxsləri, AMEA-nın birinci vitse-prezidenti akademik İsa Həbibbəyli, vitse-prezidentlər, akademiklər İradə Hüseynova, Rasim Əliquliyev, Dilqəm Tağıyev, AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinə daxil olan elmi müəssisələrin direktorları, müvafiq problemlər üzrə ölkədə və xaricdə çalışan azərbaycanlı alimlər, ABŞ, Birləşmiş Krallıq, Fransa, Cənubi Koreya, Türkiyə və İrandan olan mütəxəssislər, eləcə də bir sıra aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak etmişlər.

AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova ilk öncə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan qəhrəman general, zabit və əsgərlərimizin, eyni zamanda, COVID-19-la mücadilədə həyatını itirmiş fədakar həkimlərimizin əziz xatirəsini anmışdır. Natiq Azərbaycanın qüdrətli Silahlı Qüvvələrinin və “həkimlər ordusu”nun şücaətini yüksək qiymətləndirmiş, konfrans iştirakçılarının Ali Baş Komandana olan dəstəyini ifadə etmişdir.

Sonra akademik İradə Hüseynova təşkilat komitəsinin sədri, AMEA-nın prezidenti akademik Ramiz Mehdiyevin adından beynəlxalq tədbirin iştirakçılarını salamlamış, onun pandemiyaya qarşı mübarizədə görülən işlərlə bağlı fikirlərini və konfransın işinə arzularını çatdırmışdır: “Pandemiya elan olunduqdan sonra bir sıra ölkələr, o cümlədən Azərbaycan xüsusi tədbirlər planı hazırlamış, karantin rejimi tətbiq etmiş və müxtəlif qabaqlayıcı işlər görməklə virusun yayılmasının qarşısını almışdır.

Azərbaycanın vaxtında həyata keçirdiyi preventiv tədbirlər nəticəsində ölkəmiz bir sıra dövlətlər üçün nümunə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən və müdrik siyasət nəticəsində insanların sağlamlığının təmin olunması, eləcə də sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar öz real nəticələrini vermişdir.

Azərbaycan Milli Elmlər Akademiyasında da pandemiyaya qarşı mübarizə üzrə müvafiq sərəncamlar verilmiş və onların icrası təmin edilmişdir. AMEA-da akademik Ramiz Mehdiyevin rəhbərliyi altında postpandemiya dövrü üçün elmi fəaliyyət proqramı hazırlanmışdır. Bu proqramda insan sağlamlığı ilə bağlı tədqiqatların genişləndirilməsi də öz əksini tapmışdır.

Azərbaycanda virusa qarşı mübarizədə Azərbaycan Milli Elmlər Akademiyası ilə digər təşkilatların qüvvələri birləşdirilməli, dövlətin biotəhlükəsizlik sisteminə real töhfələr verilməlidir. İnanıram ki, hazırkı konfrans qarşıya qoyulmuş məqsədlərə çatmaqda əhəmiyyətli rol oynayacaqdır. Bu işdə hamınıza uğurlar arzulayıram”.

Daha sonra söz Milli Məclisin Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanova verilmişdir. O, COVID-19 pandemiyası ilə bağlı aktual elmi-praktiki məsələlərin müzakirəsi məqsədilə təşkil olunan beynəlxalq konfransın əhəmiyyətindən danışmışdır. Natiq koronavirusa qarşı mübarizə ilə bağlı Azərbaycan Respublikası Milli Məclisində, Səhiyyə Komitəsində görülən işlər, qəbul edilən qanunlar haqqında məlumat vermiş, Milli Məclis və AR Səhiyyə Nazirliyi tərəfindən pandemiyaya qarşı mübarizədə əhalinin sağlamlığının qorunması, eləcə də sanitariya-epidemioloji salamatlıq haqqında hüquqi aktların hazırlanmasını diqqətə çatdırmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə pandemiya dövründə Azərbaycanda virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin həyata keçirildiyini deyən Əhliman Əmiraslanov qeyd etmişdir ki, bu məqsədlə ölkəmizə Avropa istehsalı olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr vaxtında gətirilərək tibb müəssisələrinə təhvil verilmişdir. Ölkə Prezidentinin sərəncamı ilə COVID-19 xəstəliyi ilə mücadilə edən tibb işçilərinin sosial müdafiəsi gücləndirilmiş, onların əməkhaqlarına aylıq vəzifə maaşlarının 3-5 misli həcmində əlavələr müəyyən edilmişdir. Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə Yeni Çağrı Mərkəzi yaradılmış, koronaviruslu xəstələrin müalicəsinə cəlb olunmuş həkimlərə və tibb personalına psixoloji dəstək göstərilməsi təşkil edilmişdir.

Akademik Əhliman Əmiraslanov koronavirusa qarşı dərman preparatlarının və vaksinlərin əldə olunması üçün bütün təşkilatların və tədqiqatçıların birgə fəaliyyət göstərməsinin əhəmiyyətindən danışmışdır. “Vaksinin hazırlanmasına müəyyən qədər vaxt tələb olunduğundan bu virusla birgə yaşamağa öyrənməliyik”, - deyən akademik, həmçinin qeyd etmişdir ki, tibbi maskadan istifadə, sosial məsafənin gözlənilməsi və gigiyenik tələblərə əməl olunması ilə COVID-19-la daha asan mübarizə aparmaq mümkündür.

Sonra açılış mərasimində Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini Rahim Əliyev çıxış edərək COVID-19 pandemiyasının doğurduğu tibbi və sosial-iqtisadi problemlərdən, bütün dünyada xəstəliyin törətdiyi itkilərdən danışmışdır. O diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz çıxışlarında dəfələrlə pandemiyanın müxtəlif sferalara təsiri məsələsinə toxunmuş, problemlərin həlli yollarını göstərmişlər. Natiq sonra demişdir: “Nəticə etibarı ilə son günlərdə yoluxmanın azalması hökumət tərəfindən həyata keçirilən strategiyanın düzgün seçildiyini göstərir. Epidemioloji tədqiqatlar da yoluxma sayının azalmasına təsir etmişdir”. Nazir müavini çıxışının sonunda bu kimi tədbirlərin keçirilməsinin önəmli olduğunu, alimləri bir araya gətirərək onlara öz tədqiqatlarını bölüşmək üçün geniş imkanlar yaratdığını nəzərə çatdıraraq konfransın işinə uğurlar arzulamışdır.

Toplantıda Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İdarə Heyətinin (TƏBİB) sədri Ramin Bayramlı Azərbaycanda yeni növ koronavirusla mübarizə tədbirləri və qarşıda görülməsi nəzərdə tutulan işlər haqqında geniş təqdimatla çıxış etmişdir. O, ölkəmizdə COVID-19 ilə mübarizəyə cəlb olunmuş həkimlər və tibbi personala onlayn rejimdə, eləcə də canlı ünsiyyət vasitəsilə təlimlərin keçirildiyini, ilk dəfə olaraq tam avtomatlaşdırılmış PZR laboratoriyalarının TƏBİB tərəfindən Azərbaycana gətirildiyini, hazırda ölkədə çoxsaylı yeni laboratoriyanın fəaliyyət göstərdiyini diqqətə çatdırmışdır.

Ramin Bayramlı çıxışında koronavirusla bağlı tədqiqatların aparılması, dərman və vaksinin hazırlanması istiqamətində sıx əməkdaşlığın, bu əməkdaşlıqda AMEA-nın əlaqələndirici rolunun son dərəcə vacib olduğunu xüsusi olaraq bildirmişdir.

Sonra Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müşaviri Elxan Mikayılov çıxış edərək konfransın əhəmiyyətini vurğulamış və bildirmişdir ki, bütün dünyanın koronavirusla mübarizə içində olduğu bir vaxtda xəstəliyin xüsusiyyətləri və ona qarşı tətbiq edilən mübarizə metodlarının elmi cəhətdən araşdırılması, eyni zamanda, genetik xüsusiyyətlərini nəzərə almaqla xəstəliyə qarşı mübarizə yollarının təklif edilməsi çox vacib məsələdir. Qlobal pandemiyanın ortaya çıxardığı mühüm məsələlərdən biri də insanların immun sisteminin gücləndirilməsidir. Qida Təhlükəsizliyi Agentliyi koronavirusun yayılmağa başladığı ilk gündən Operativ Qərargahla əməkdaşlıq edərək, xüsusilə ictimai iaşə, topdan və pərakəndə satış obyektlərində profilaktik tədbirlərə dair metodiki göstərişlər hazırlayaraq ictimaiyyətə təqdim etmişdir. Digər vacib istiqamətin laboratoriya müayinələrinin aparılması olduğunu deyən Elxan Mikayılov Qida Təhlükəsizliyi Agentliyinin tərkibində hazırda 9 stasionar laboratoriyanın fəaliyyət göstərdiyini bildirmişdir.

Sonra söz akademik Əli Abbasova verilmişdir. O qeyd etmişdir ki, Azərbaycan da daxil olmaqla az sayda ölkə yalnız düzgün qərarların qəbulu, müəyyən təşkilati və tibbi-bioloji müalicəvi tədbirlərin görülməsi ilə vəziyyətdən minimum itkilərlə çıxa bilmişdir. Alim YTP-də xüsusi karantin müddətində görülən işlər haqqında məlumat verərək elm və iqtisadiyyat arasında körpü rolunu oynayan bu təşkilatın əsas məqsədinin alınan elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılmasından ibarət olduğunu qeyd etmişdir. Akademik Əli Abbasov koronavirusun təhlükə mənbəyi olması ilə yanaşı, bir çox sahələrə, əsasən də yüksək texnologiyaların inkişafına müsbət stimullaşdırıcı təsir xüsusiyyətinin ortaya çıxdığına diqqət çəkmişdir: “Məlumdur ki, COVID-19-un bütün dünyada vüsət alması ilə bir sıra sahələrdə sürətli inkişaf müşahidə olunmağa başladı. Buraya tibbi-bioloji istiqamətlərdən başqa, informasiya texnologiyaları sahəsi də aiddir. Məsələn, pandemiya dövründə tibbi xidmətlərin rəqəmsal platformalar üzərində təqdim olunması ön plana çıxmışdır”.

Əli Abbasov artıq koronavirusla mübarizə üçün süni intellekt və müasir texnologiyaların tətbiqi ilə dünyada bir neçə elmi proqramın hazırlandığını demişdir. Alim Azərbaycanda TƏBİB-in yaratdığı “E-Təbib” proqramını yüksək qiymətləndirərək, mobil tətbiqin ölkəmizdə bu sahədə ilk təcrübə olduğunu vurğulamışdır.

Beynəlxalq konfransın açılış toplantısına AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynovanın çıxışı ilə yekun vurulmuşdur. O çıxışında demişdir: “Bəşəriyyət öz tarixi boyunca dəfələrlə patogen mikroorqanizmlər səbəbindən yaranan və çoxsaylı qurbanlara səbəb olan bir sıra pandemiyalarla üzləşmişdir. Tarix ərzində dəfələrlə baş qaldırmış və qurbanlarının sayı birlikdə bir neçə yüz milyonlarla ölçülən donuz qripi, Yustinian vəbası və ya bubon taunu, QİÇS, İspan qripi, “qara ölüm”, çiçək, vəba, ebola, quş qripi, vərəm, malyariya, cüzam və s. kimi son dərəcə qorxulu yoluxucu xəstəliklər zəncirinə XXI əsrin əvvəllərində mənşəcə bir-birinə yaxın bir neçə təhlükəli virus - SARS CoV-1, MERS, yeni SARS-CoV-2 (COVID-19) pandemiyası da qoşulmuşdur. İlk yoluxması 2019-cu ilin axırlarında Çinin Uhan şəhərində qeydə alınan yeni COVID-19 pandemiyası həm dünyanın səhiyyə sistemini, həm iqtisadiyyatını və iş həyatını, həm də bütün müvafiq elm sahələrini, sözün əsil mənasında, çətin sınaq qarşısında qoymuşdur”.

Pandemiyaya qarşı uğurla mübarizə aparan ölkələr sırasında Azərbaycanın yer almasının səbəblərindən danışan natiq daha sonra demişdir: “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hakimiyyətdə olduğu dövrdə ölkədə 700-dən çox səhiyyə ocağı, müasir klinikalar inşa olunmuş və ya əsaslı təmir edilmişdir. Pandemiya dövründə bu işlər daha da intensivləşdirilmiş, ölkənin səhiyyə sistemi qısa müddət ərzində yenidən qurulmuşdur. Son aylarda istifadəyə verilmiş “Yeni klinika”, çoxsaylı modul tipli xəstəxanalar mövcud imkanları daha da genişləndirmişdir. Ümummdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq qurulmuşdur. Tibbi və diaqnostika avadanlıqları ilə təchiz olunmuş laboratoriyalar koronavirusla bağlı fəaliyyətlərə cəlb edilmiş, xaricdən testlər və süni tənəffüs aparatları alınaraq ölkəyə gətirilmişdir. Xaricdə təhsil almış və fəaliyyət göstərən xeyli azərbaycanlı həkim ölkəyə dəvət edilmiş və pandemiyaya qarşı mübarizəyə qoşulmuşdur. İqtisadiyyatın davamlılığının qorunması, özəl sektorun dəstəklənməsi, cəmiyyətin aztəminatlı və pandemiyadan ziyan çəkmiş sektoruna yardımların göstərilməsi üzrə atılan addımlar da təqdirəlayiqdir. İnanıram ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün taleyüklü mücadilələrdən, o cümlədən koronavirus pandemiyasına qarşı mübarizədən qalib çıxacaqdır”.

Akademik İradə Hüseynova bu gün bütün dünyada koronavirusla mücadilə və xəstələrin müalicəsi ilə yanaşı, geniş diapazonda elmi tədqiqat işləri də aparıldığına diqqət çəkmişdir: “Hazırda minlərlə virus genomu ardıcıllığı oxunmuş, mutasiya etmiş ştammlar müəyyən edilmiş, virusun endositoz, çoxalma və ekzositoz mexanizmləri aydınlaşdırılmış, xəstəliyin müalicəsində bir sıra klassik preparatların effektivliyi yoxlanılmış, yeni preparat və vaksinlərin hazırlanması və sınağı davam edir. Xüsusi elmi-praktiki önəm kəsb edən tədqiqat istiqamətlərindən biri bu xəstəliyin yayılma tezliyinə və letallıq dərəcəsinə təsir edə biləcək 3 əsas amilin - insanın nisbi sağlamlıq durumunun, yeni koronavirusun genom və proteom variasiyalarının və ətraf mühitin ayrılıqda və əlaqəli təsirinin tədqiqidir. Tədqiqat baxımından bir maraqlı məqam da budur ki, dünya üzrə müxtəlif ölkə populyasiyalarında SARS-CoV-2-nin yayılma miqyasında və letallığında əhəmiyyətli dərəcədə fərqlər müşahidə olunur”.

Sonra konfransın məqsədlərini diqqətə çatdıran akademik İradə Hüseynova qeyd etmişdir ki, Azərbaycanda virusla və ona qarşı mübarizə ilə bağlı Milli Elmlər Akademiyasının, Səhiyyə Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin, TƏBİB-in, universitetlərin qüvvələri birləşdirilməli, birgə multidissiplinar tədqiqatlar aparılmalı və dərinləşdirilməlidir. Müvafiq elm sahələrinin təmçilçiləri dövlətin biotəhlükəsizlik sisteminə, gözlənilməz təbii və süni bəlalara hazırlığına real töhfələr vermək üçün lazım olan hər şeyi etməyə hazır olmalıdırlar.

Çıxışının sonunda akademik İradə Hüseynova konfransın qarşıya qoyulmuş məqsədlərə nail olacağına, konfransda aparılacaq diskussiyaların bir sıra problemlərə aydınlıq gətirəcəyinə və elmimizin müvafiq sahələrinin inkişafına lazımi təkan verəcəyinə əminliyini ifadə etmişdir.

Sonra tədbir AMEA-nın müxbir üzvü Nuru Bayramov və professor İsmayıl Zülfüqarovun moderatorluğu ilə öz işinə davam etmişdir. Qeyd etmək lazımdır ki, konfransda məruzələr üç dildə (Azərbaycan, rus və ingilis dillərində) tədqim olunmuşdur. İlk plenar iclasda İndiana Bioelmlər Tədqiqat İnstitutunun professoru, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda beynəlxalq laboratoriyanın müdiri Vidadi Yusibov “COVID-19 üçün terapevtik anticisimlər” və TƏBİB-in Tibbi Profilaktika İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Adil Allahverdiyev “COVID-19 üçün vaksin hazırlanmasında mövcud vəziyyət” mövzusunda məruzələrlə çıxış etmişlər.

Daha sonra bölmə iclasları ilə davam edən konfransda “SARS-CoV-2 və renin-angiotenzin-aldosteron sisməti arasında qarşılıqlı əlaqə”, “Azərbaycanın antiviral bitkiləri və onların istifadə yolları”, “Koronavirusun genomlarının ümumi struktur təşkili”, “Uşaqlarda yeni koronavirus infeksiyası (COVID-19)” və digər mövzularda yerli və xarici alimlərin çıxışları dinlənilmiş, geniş müzakirələr aparılmışdır.

Konfransın sonrakı iclaslarına AMEA-nın muxbir üzvü Pənah Muradov və biologiya üzrə fəlsəfə doktoru Ələmdar Məmmədov moderatorluq etmişlər. İlk iclasda Türkiyənin Akdeniz Universitetinin professoru, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda beynəlxalq laboratoriyanın müdiri AMEA-nın muxbir üzvü Tərlan Məmmədovun “Müxtəlif ölkələrdə aşkar olunmuş yeni SARS-COV-2 koronavirus ştamlarının struktur zülallarının sekvens analizi və aminturşu variasiyaları”, TƏBİB-in Elmi Komitəsinin sədri, Azərbaycan Tibb Universitetinin şöbə müdiri, tibb elmləri doktoru, professor Akif Qurbanovun “COVID-19 - yeni tipli koronavirus infeksiyasının diaqnostika, müalicə və spesifik profilaktika problemləri” mövzularında plenar məruzələri dinlənilmiş və geniş şəkildə müzakirə edilmişdir.

Konfransın 2-ci gününün (5 avqust 2020-ci il) səhər toplantısını akademik İradə Hüseynova açaraq ilk öncə tədbir iştirakçılarına AMEA-nın birinci vitse-prezidenti, akademik İbrahim Quliyevin konfrans iştirakçılarına təbriklərini və arzularını çatdırmışdır. Daha sonra beynəlxalq konfrans öz işinə AMEA-nın Fiziologiya İnstitutunun direktoru, biologiya elmləri doktoru, professor Ulduz Həşimova və biologiya üzrə fəlsəfə doktoru Samirə Rüstəmovanın moderatorluğu ilə davam etmişdir.

Plenar iclasda Azərbaycan Tibb Universitetinin kafedra müdiri, AMEA-nın muxbir üzvü Nuru Bayramovun “COVID-19 infeksiyasının klinik özəllikləri və özünü doğrultmuş müalicələr” və Marağa Tibb Elmləri Universitetinin (İran) professoru dr. Əziz Eftexarinin “Tibbi müəssisələrdə SARS-COV-2-ni sürətli və asan deteksiya etməklə COVID-19-un testləşdirilməsi” mövzusunda məruzələri dinlənilmişdir.

Konfransın bölmə iclası öz işini “Məsafədən spektrofotometrik müşahidələr əsasında Bakı şəhəri havasında mikroorqanizmlərin yayılması arealının operativ təyini”, “COVID-19 pnevmoniyasının diaqnostikasında döş qəfəsinin rentgenoqrafiya və kompüter tomoqrafiya müayinələrinin imkanlarının öyrənilməsi”, “COVID-19 ilə bağlı miokarditlər”, “COVID-19 xəstəliyindən sonra yaranan psixoloji pozuntuların reabilitasiyası” və digər mövzularda məruzələrlə davam etdirmişdir.

Avqustun 5-də günortadan sonra biologiya elmləri doktoru Dilzarə Ağayevanın və biologiya üzrə fəlsəfə doktoru Mehrac Abbasovun moderatorluğu ilə baş tutan plenar iclasda AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun laboratoriya müdiri, AMEA-nın muxbir üzvü İlham Şahmuradovun “MBBİ SARS-CoV-2 və digər koronavirusların membran zülallarının bioinformatik müqayisəsi”, Pusan Milli Universitetinin (Cənubi Koreya) tədqiqatçı-professoru, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda beynəlxalq laboratoriyanın müdiri professor İsmayıl Zülfüqarovun “SARS-CoV-2-nin zülalları və infeksiyanın qarşısının alınması üçün mümkün dərman namizədləri”, Kembric Tibbi Tədqiqatlar Şurası Molekulyar Biologiya İnstitutunun (Birləşmiş Krallıq) qrup rəhbəri, MBBİ-də beynəlxalq laboratoriyanın müdiri professor Qərib Mürşüdovun “Viruslar və pandemiya: gələcək üçün zəruri olan təhsil və elmi istiqamətlər” mövzusunda etdikləri məruzələr böyük marağa səbəb olmuş, məruzəçilərə çoxsaylı suallar verilmiş, məruzələr ətrafında geniş müzakirələr aparılmış, müxtəlif təkliflər səsləndirilmişdir.

Konfransın 6 avqust 2020-ci ildə baş tutan iclasında ilk olaraq biologiya üzrə fəlsəfə doktoru Nurməmməd Mustafayev “Azərbaycan əhalisində Y-xromosom DNT-nin polimorfizmi” mövzusunda aparılmış tədqiqat işinin nəticələrini məruzə etmişdir. Daha sonra konfrans iştirakçılarının “COVID-19 xəstəliyinin molekulyar diaqnostikasında keyfiyyətə nəzarət”, “Stasionar COVID-19 xəstələrində müalicə nəticələrimiz”, “Yarasalar bəzi zoonoz virusların potensial təbii rezervuarı kimi”, “Koronavirus infeksiyasının (COVID-19) perimenopauzal dövrdə olan qadınlara təsiri”, “SARS-CoV-2 virusuna qarşı təhlükəsiz və effektiv peyvəndin alınması ehtimalı varmı?” və s. mövzularda çıxışlar dinlənilmişdir.

Onlayn konfransın bağlanış mərasimində AMEA-nın müxbir üzvü Nuru Bayramov, Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun direktoru, akademik Fikrət Əliyev, professor Qərib Mürşüdov, akademik Əli Abbasov, professor Vidadi Yusibov, professor İsmayıl Zülfüqarov, professor Ulduz Həşimova, AMEA Botanika İnstitutunun Etnobotanika laboratoriyasının müdiri, biologiya üzrə elmlər doktoru Səyyarə İbadullayeva, tibb üzrə fəlsəfə doktoru Allahverdi Şahverənov və digərləri çıxış edərək konfransın işi haqqında müsbət mülahizələrini və təkliflərini səsləndirmişlər.

Beynəlxalq konfransa yekun vuran AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova demişdir: “Pandemiya bir daha göstərdi ki, ölkəmizdə həm fundamental, həm də tətbiqi elm sahələri daha intensiv şəkildə inkişaf etdirilməli, təbii və antropogen xarakterli təhlükə və risklərə qarşı elmi tədqiqatlar aparılmalıdır. Belə bir şəraitdə biologiya, xüsusilə də tibb elmlərinə diqqət yönəldilməli, biotibb sahəsi daha çox inkişaf etdirilməlidir. Bu gün yoluxucu xəstəliklərlə bağlı patalogiyaların populyasiya səviyyəsində, molekulyar-genetik tədqiqi böyük əhəmiyyət kəsb edir. Pandemiya ilə mübarizə tədbirləri çərçivəsində aparılan tədqiqatlar zamanı müasir texnologiyalardan istifadə zəruridir, dördüncü sənaye inqilabının tələblərinə müvafiq olaraq biologiya və tibb sahələrində maşınöyrənmə və süni intellekt texnologiyaları tətbiq olunmalı, nəticələrin proqnozlaşdırılmasına imkan verən dinamik sistemlər qurulmalıdır”.

Sonda konfrans iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanmışdır.

***Bəxtiyar ƏZİZLİ,***
***“Azərbaycan”***

# Pandemiya ilə bağlı bütün məsələlər dövlətin ciddi nəzarəti altındadır

## Azərbaycan hökuməti üçün vətəndaşların sağlamlığı və təhlükəsizliyi prioritetdir

Hazırda dünyada COVID-19 virusuna yoluxanların sayı 20 milyon nəfəri ötüb, ölənlərin sayı isə 750 minə yaxınlaşır. Martın 11-dən pandemiya elan edilən yeni tip koronavirus inanılmaz sürətlə yayılmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının üzvləri isə hələ də bu infeksiyanın qarşısını almağın mümkün olmadığını bildirirlər.



Onlar ölkələri sanitar epidemioloji vəziyyətin ciddi təhlil olunmasından sonra və mərhələli şəkildə yumşalmalara gedilməsinə, əhalini isə qoyulan qaydalara maksimum əməl etməyə çağırır. Hazırda vaksinlə bağlı müəyyən uğurlar əldə edilsə də, onların real tətbiqi yaxın bir neçə ayda gözlənilmir. Bu halda isə COVID-19-dan çıxış yolu mümkün qədər qorunaraq ona yoluxmamaqdır. Sosial məsafə, maska və gigiyena şərtləri hazırkı 21-ci əsr insanının təhlükədən sığortası, gələcəyə yol alması üçün həyati vacib şərtə çevrilib.

Mütəxəssislərin də bildirdiyi kimi, yeni tip koronavirus heç bir müalicəyə tabe olmur, fürsət düşən kimi aqressivliyini artıraraq yoluxma arealını sürətlə genişləndirir. Sərt karantin rejimləri sayəsində bu virus müəyyən qədər nəzarət altına alınsa da, yumşalmalarla bərabər yenidən alovlanır. Buna isə əhalinin yumşalmanı COVID-19-un yox olması kimi başa düşərək pandemiyadan əvvəlki həyat şərtlərinə uyğun davranması səbəb olur. Və ölkələr yenidən sərt karantin rejimi tətbiq etməyə, sərhədlərini bağlamağa məcbur olur. Amma bu da reallıqdır ki, problemdən çıxış yolu sərt karantin rejimi deyil və bu halın özü belə dünyanı qorxulu nəticələrlə üz-üzə qoya bilər.

Bəli, COVID-19-dan maksimum qorunmaq üçün məhz onun tələb etdiyi şərtlərə uyğun addımlar atmaq, qərarlar qəbul etmək mütləqdir.

### İnfeksiya ilə effektiv mübarizə aparılır

Koronavirusun hələ sərhədlərimizdən çox-çox uzaqlarda olduğu dönəmlərdən etibarən vətənimizdə ona qarşı çevik və operativ tədbirlərə start verildi.

Yanvar ayında Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Virusun xaricdən ölkəyə “gəlməsinin” və yayılmasının qarşısını almaq üçün respublikamızın sərhədləri bağlandı.

Martın 3-dən etibarən ölkədə bütün təlim-tədris prosesi dayandırıldı, təhsil müəssisələri bağlandı, kütləvi tədbirlər, idman yarışları təxirə salındı. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində martın 14-dən sosial izolyasiya qaydaları, aprelin 5-dən isə xüsusi karantin rejimi tətbiq olundu.

Dövlətin bütün potensialı bu infeksiya ilə mübarizəyə yönəldi, mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla və sistemli şəkildə həyata keçirildi.

Ölkə rəhbərinin birbaşa rəhbərliyi və ciddi nəzarəti altında pandemiyaya qarşı həyata keçirilən məqsədyönlü və operativ tədbirlər çox keçmədən infeksiyanın yayılmasını məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verdi, kütləvi yoluxmanın qarşısını aldı.

### Ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizəyə uyğunlaşdırıldı

Dərhal ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı. Paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Qısa müddətdə 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən “Yeni Klinika” koronavirus xəstələrinin ixtiyarına verildi. Ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu. Bölgələr də daxil olmaqla, modul tipli xəstəxanaların quraşdırılmasına başlandı. Azərbaycan dövlətinin pandemiyaya qarşı mübarizə istiqamətində atdığı mühüm addımlar sırasında böyük əhəmiyyət daşıyan bu xəstəxanalar koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynadı, eləcə də ölkənin səhiyyə sisteminə əlavə çarpayı ehtiyatı yaratdı.

Türkiyədən, Rusiyadan, Kubadan, İtaliyadan və Çindən həkim briqadalarının Azərbaycana gətirilməsi isə həkim çatışmazlığı ilə bağlı problemlərin həllinə istiqamətlənib.

### Virusun erkən aşkarlanması üçün aparılan testlərin sayı 1 milyona yaxınlaşır

Koronavirusa yoluxmanı məhdudlaşdırmaqda virusun erkən aşkarlanması müstəsna rol oynayır. Bu baxımdan da ölkəmizdə vacib işlər həyata keçirilir. Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib. Pandemiya başlayandan qısa müddət ərzində ölkədə laboratoriyaların sayı 5 dəfə artıb. Bütövlükdə isə laboratoriyaların sayının 45-ə çatdırılması nəzərdə tutulub və yaxın gələcəkdə alınacaq yeni laboratoriyalar daha böyük sayda testlərin keçirilməsinə imkan verəcək.

Son statistikaya əsasən, hazırda Azərbaycanda COVID-19-a yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin sayı 8 yüz mini keçib.

Bu isə adambaşına düşən testlərin sayına görə Azərbaycanın dünya miqyasında qabaqcıl yerlərdə qərar tutmasına rəvac verir.

### Həyata keçirilən siyasətin mərkəzində insan amili dayanır

Xüsusilə də ilk gündən ölkəmizdə heç bir sosial layihənin təxirə salınmaması, insanların rahatlığının təmin edilməsi, sosial rifahların yaxşılaşdırılması istiqamətində bir-birindən əhəmiyyətli addımların atılması pandemiyanın təsirlərini xeyli azaldıb. Çətinliklərə baxmayaraq, Azərbaycanda nəinki hansısa sosial layihə ixtisar olunub, əksinə, sosial təminat istiqamətində tədbirlərin sayı artıb.

Prezident İlham Əliyev nitqlərində vurğulayır ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində insan amili dayanır. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və operativ qabaqlayıcı tədbirlərin, o cümlədən xüsusi karantin rejiminin və sərtləşdirilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində koronavirusla mübarizə sahəsində yenidən müsbət dinamika əldə etmişik. Hazırda COVID-19 infeksiyasına yoluxma sayı ikirəqəmli həddə düşüb. Sağalanların sayı yoluxmanı kəskin üstələyib, ölüm halları isə xeyli azalıb.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# AHİK pandemiya dövründəki fəaliyyəti barədə hesabat verib

Avqustun 14-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) qurumun sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "Koronavirus pandemiyası dövründə AHİK tərəfindən həyata keçirilən tədbirlər" mövzusunda mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, media nümayəndələri qarşısında çıxış edən AHİK-in sədri bildirib: "Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirə göstərdi ki, dövlətimiz bəşəriyyətin başı üstünü almış COVID-19-a qarşı mübarizədə elə ilk gündən düzgün qərarlar qəbul edib, daxili imkanlardan bacarıqla istifadə edərək vəziyyəti nəzarətdə saxlaya bilib. Nəticə göz qabağındadır. Dövlətimizin başçısı sözügedən müşavirədə dediyi kimi, koronavirusa qarşı mübarizə işində müsbət dinamika müşahidə olunur. İyulun 16-dan bu günə qədər bu müsbət dinamika deməyə əsas verir ki, görülmüş bütün tədbirlər vaxtında görülmüş tədbirlərdir. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır".

Azərbaycan həmkarlar ittifaqları Prezident İlham Əliyevin ölkə vətəndaşlarının, o cümlədən həmkarlar ittifaqı üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması üçün qəbul etdiyi qərarları, xalqın sağlamlığı və xoş güzəranı ilə əlaqədar atdığı bütün addımları yüksək qiymətləndirir".

S.Möhbalıyev qeyd edib ki, dövlət başçısının insanların rifahı naminə göstərdiyi müstəsna fəaliyyəti, mərhəmət, nəciblik və şəfqət kimi ali insani keyfiyyətlərə malik Birinci vitse-prezident Mehriban Əliyevanın bu sınaq günlərində xalqa müraciəti mənəvi dəstəyin parlaq nümunələridir.

Təbii ki, pandemiya ilə mübarizədə Azərbaycan həmkarlar ittifaqları da yaxından iştirak ediblər. Koronavirus infeksiyasının aradan qaldırılmasına yardımçı olmaq üçün AHİK və üzv təşkilatları bütün imkanlarını səfərbər edərək müəyyən addımlar atıb.



AHİK sədri xüsusilə qeyd edib ki, Prezident İlham Əliyev pandemiya ilə əlaqədar işçilərin ixtisara salınmaması, onların əmək hüquqlarının qorunması barədə dəfələrlə tapşırıqlar verib, bu məsələlərə ciddi yanaşılmasını tələb edib. Sözsüz ki, dövlət başçısının tələbləri bizim məqsədlərimizlə uyğunlaşır və biz də onu hər zaman dəstəkləyirik.

S.Möhbalıyev diqqətə çatdırıb ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası beynəlxalq təşkilatların, o cümlədən Pan-Avropa Regional Şurasına və Beynəlxalq Əmək Təşkilatına üzv ölkələrin həmkarlar ittifaqı təşkilatları üçün keçirdikləri vebinarlarda rəhbərlik səviyyəsində fəal iştirak edərək, respublikamızda koronavirusla mübarizə sahəsində atılan addımlar və Azərbaycan həmkarlar ittifaqlarının bu istiqamətdə həyata keçirdiyi tədbirlər barədə iştirakçılara geniş məlumat verib. Hər iki beynəlxalq təşkilat respublikamızda sözügedən sahədə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib.

Pandemiya dövründə işçilərin əmək hüquqlarının qorunması və müdafiəsi həmkarlar ittifaqı tərəfindən diqqət mərkəzində saxlanılıb. Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən yaradılmış qrupun işəgötürənlərə ünvanladığı bildiriş bütün üzv təşkilatlara göndərilib.

COVID-19 infeksiyasının ölkəmizdə daha geniş yayılmasının qarşısının alınması məqsədilə elan olunmuş xüsusi karantin rejimi dövründə həmkarlar ittifaqları öz imkanları daxilində Qarabağ müharibəsi iştirakçılarına, şəhid ailələrinə, tənha yaşayan şəxslərə və aztəminatlı ailələrə maddi dəstək göstərib. Son vaxtlar yalnız AHİK tərəfindən 1200 nəfərdən çox həmkarlar ittifaqı üzvünə ümumilikdə 303 min manatdan çox maddi yardım göstərilib.

Bununla yanaşı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Koronavirusla Mübarizəyə Dəstək Fonduna 250 min manat və Naxçıvan Muxtar Respublikasında koronavirusla mübarizəyə dəstək üçün 200 min manat vəsait köçürüb. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə aprelin 13-də müqavilə bağlanıb. Müqaviləyə əsasən, AHİK tərəfindən birliyin hesabına 105 min manat vəsait köçürülüb. İyulun 27-də "Regional İnkişaf" İctimai Birliyinə əlavə olaraq 100 min manat vəsait köçürülüb. Eyni zamanda COVID-19 infeksiyasına qarşı mübarizə məqsədilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına 10 min manat vəsait köçürülüb.

AHİK İcraiyyə Komitəsinin avqustun 13-də keçirilmiş iclasının qərarına əsasən, Naxçıvan Muxtar Respublikasının Koronavirusla Mübarizəyə Dəstək Fonduna əlavə olaraq daha 100 min manat, Naxçıvan Həmkarlar İttifaqları Şurasına 10 min manat maliyyə yardımı edilib. İclasda, həmçinin 2016-cı il Aprel və 2020-ci il İyul döyüşlərində şəhid olmuş 23 hərbi qulluqçunun 41 azyaşlı övladının himayəyə götürülməsi və hər bir uşağa 18 yaşına çatana kimi ayda 150 manat məbləğində yardım edilməsi qərara alınıb.

AHİK və onun tabeliyində olan təşkilatlar tərəfindən yaradılan mobil qruplar bu dövr ərzində 29,588 aztəminatlı ailəyə 1,305,748 manatlıq, o cümlədən 76 şəhər və rayonda yaşayan 3900 aztəminatlı ailəyə 68 ton ərzaq sovqatları paylayıb. Yaşı 65-dən çox olan ehtiyac sahiblərinə, imkansız həmkarlar ittifaqı üzvlərinə 1,959,881 manat məbləğində maddi yardım göstərib, karantin rejimində istifadə edilməsi üçün həmkarlar ittifaqı təşkilatları üzvlərinə 351,056 manatlıq qoruyucu vasitələr paylanıb. Bu müddətdə yalnız AHİK tərəfindən ehtiyacı olan həmkarlar ittifaqı üzvlərinə 302,979 manat maddi yardım göstərilib. Eyni zamanda həmkarlar ittifaqı təşkilatlarının rəhbər işçiləri öz əməkhaqlarından Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr edib, fonda həmkarlar ittifaqları tərəfindən 477,760 manat vəsait köçürülüb.

AHİK-in üzv təşkilatları öz sahələri üzrə aztəminatlı ailələrə 900,748 manatlıq maddi yardım və ərzaq yardımları göstəriblər.

Ümumilikdə, Azərbaycan həmkarlar ittifaqı təşkilatları tərəfindən koronavirusla mübarizəyə və eyni zamanda dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə 4,204,445 manatdan çox vəsait xərclənib. Bu tədbirlər hazırda da davam etdirilməkdədir.

S.Möhbalıyev bir daha bildirib ki, həmkarlar ittifaqları öz işini bundan sonra da Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərar və göstərişlər əsasında quracaq. İlk növbədə qurumun üzvləri tətbiq edilən karantin rejiminə ciddi əməl etməklə bu qaydalara əməl olunmasına nəzarəti də gücləndirməlidirlər. Həmkarlar ittifaqları işçilərin sosial-iqtisadi hüquqlarının qorunmasına, bu sahədə onların sosial problemlərinin həllinə, məşğulluq məsələlərinə diqqəti bir daha artırmalıdır.

Prezident İlham Əliyev koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirədəki yekun nitqində etdiyi "yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə vətəndaşlarımızı, dövlətimizi bu vəziyyətdən xilas etməkdir" çağırışındakı hikmət həmkarlar ittifaqlarını dərindən düşündürməli və onun fəaliyyət istiqamətlərini müəyyənləşdirməlidir.

Sonda AHİK sədri jurnalistləri maraqlandıran sualları cavablandırıb.

# Sumqayıtda binaların dam örtüyü dəyişdirilir

**Ölkə Prezidenti Sumqayıta daim diqqət və qayğı göstərir. Prezident İlham Əliyevin regionların inkişafına, bölgələrdə abadlıq-quruculuq işlərinin aparılmasına qayğısı Sumqayıtın bütün həyatında canlanır.**

Şəhərdə yeni infrastruktur layihələr bir-birini əvəzləməklə yüksəliş tempilə həyata keçirilir. Sumqayıtda beş ildə aparılan tikinti, abadlıq, quruculuq işləri sürətlə davam etdirilməkdədir.

Bunların içərisində binaların təmiri və dam örtüklərinin dəyişdirilməsi vacib sayılanlardandır. Sumqayıt arxitektura baxımından uğurlu şəhərlərdən biridir. Burada binalar arasında məsafələr, əlavə ərazilərin qorunub saxlanması (oyun meydançaları, insanların istirahəti üçün xüsusi yerlər və s.) qaydalarına riayət edilir.

Sumqayıtdakı yaşayış binalarının təmiri ilə yanaşı, onların dam örtüyü də dəyişdirilir. Son beş ildə 1200 binanın dam örtüyü dəyişdirilmiş, onlara gözəl görkəm verilmişdir. Hazırda daha 135 binanın dam örtüyü dəyişdirilməkdədir. Onların 102-sində işlər tatmamlanmaq üzrədir. Şəhərin 9 və 10-cu mikrorayonlarında, 2, 3, 4, 5, 7, 9, 17, 18, 19, 20, 21, 41 və 45-ci məhəllələrdə, Hacı Zeynalabdin qəsəbəsində dam örtüyünün dəyişdirilməsi uğurla aparılır. Adıçəkilən ərazilərdə binaların tüstü bacaları da yenidən hörülür. Qeyd edək ki, şəhərdəki mənzil fonduna aid edilən bir neçə koperativ binanın da təmiri və dam örtüyünün dəyişdirilməsi davam etməkdədir.



İşlərin səliqəli aparılmasına xüsusi diqqət yetirilir. Binada iş başa çatan kimi tullantılar oradan daşınır. Sakinlərin istirahəti üçün yaşayış massivlərində guşələr də təmir edilərək onların istifadəsinə verilir.

Görülən işlər kataloquna bir sıra binaların yenidənqurulması, forma baxımından yenilənməsi daxildir. Mikrorayon və qəsəbələrdə bir çox yaşayış binalarının fasadı dəyişdirilir, müasir texniki üsullardan istifadə edilir. Aqlayla üzlənən binalara müasir qaydada görkəm verilir. Təmir edilən binalarda memarlıq üslubu saxlanılır, aşınmaya səbəb olan elementlər aradan qaldırılır. Binaların dizayn və memarlıq elementləri qalmaqla yenilənir. Üzlənmə zamanı yüksək keyfiyyətli materiallardan istifadə edilir.

Qeyd edək ki, yaxın zamanda şəhərdəki bütün binaların dam örtüyünün dəyişdirilməsi başa çatdırılacaq. Belə gözəl şəhərdə yaşamaq onun sakinlərinin arzusudur. Hər bir sumqayıtlı belə qayğıya görə ölkəmizin başçısına minnətdardır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı tikili və avadanlıqların cari təmiri işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.08.2020-ci il saat 17:00-dək qəbul olunur.
Kotirovka sorğusunun təklif zərfləri 20.08.2020-ci il saat 11:00-da açılacaqdır.
Əlaqələndirici şəxs: Qasımov İsgəndər (qasimovi@mail.ru)

**Telefon: (012) 493-88-14, (050) 275-19-91.**
**Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:**
**Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli 80, (Hökumət Evi, qapı 2)**

*Tender komissiyası*



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu
### *açıq tenderə dəvət edir*

LOT 1 - Dövlət Sosial Müdafiə Fondu üçün infoqrafika işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 50 (əlli) manat**

**Satınalan təşkilat: Dövlət Sosial Müdafiə Fondu**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/hesabı: AZ46CTRE00000000000007018504**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri-notarial qaydada təsdiq olunmuş;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış -14.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - 2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı - 14.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla),*
- *bənzər işlərdə təcürbəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **04.09.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **14.09.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **15.09.2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*


# Ağstafada xüsusi karantin rejimi qaydalarına əməl edilməsinə nəzarət gücləndirilib

**Ölkəmizdə koronavirusun yayılmasının qarşısının alınması və sosial təcridin gücləndiriməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təsdiq olunmuş xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara əməl olunması üçün zəruri tədbirlər görülür.**





Xeyli vaxtdır koronavirusun yayılması sürətinin azaldılması məqsədilə xüsusi karantin rejimi tətbiq olunub. Belə ki, pandemiya dövrü üçün Operativ Qərargah tərəfindən müvafiq qaydalar müəyyənləşdirilmişdir ki, bunlar da avqustun 31-dək qüvvədə olacaq.

Pandemiyaya qarşı mübarizə aparılmasının üsulları əsasən özünü sosial təcridetmə, qoruyucu vasitələrdən istifadə edilməsi və gigiyena qaydalarına əməl olunmasıdır. İnfeksiyanın geniş yayılmasının məhdudlaşdırılması ilə bağlı zəruri şərtlərdən biri də əhali arasında maarifləndirici və izahedici tədbirlərin həyata keçirilməsidir. Bu məqsədlə Ağstafa Rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərən operativ qərargahın nəzdində mobil qruplar yaradılmış və bu qrupların tərkibinə ziyalılar, gənclər, könüllülər, hüquq-mühafizə orqanlarının nümayəndələri cəlb edilmişdir.

Ötən müddət ərzində rayonun bütün yaşayış məntəqələrində əhali qrupları ilə görüşlər keçirilmiş, maarifləndirmə işləri aparılmışdır. Bundan başqa rayon icra hakimiyyətinin təşkilatçılığı ilə bilavasitə rəhbər işçilərin qatıldığı qruplar tərəfindən əhalinin kütləvi toplaşması ehtimal olunan yerlərdə reydlər keçirilmiş, xüsusi karantin rejimi qaydalarını pozan vətəndaşlar, sahibkarlar cərimə olunmuş, bəzilərinə xəbərdarlıq edilmişdir. Bu tədbirlər ona hədəflənmişdir ki, insanlar qrup şəklində bir yerə toplaşmasınlar, tənəffüs yollarının infeksiyadan qorunması üçün tibbi maskadan istifadə etsinlər və sosial məsafəni saxlasınlar.

Respublika daxilində koronavirusa yoluxma hallarının minimuma endirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən biri də əhali arasında aparılan maarifləndirmə işlərinin gücləndirilməsi və vətəndaşlara tibbi maskaların paylanmasıdır. Elə bu məqsədlə COVID-19 pandemiyası ilə mübarizə tədbirlərinə dəstək məqsədilə dövlət-biznes əməkdaşlığı çərçivəsində daha bir sosial aksiyaya start verilib. İqtisadiyyat Nazirliyinin təşəbbüsü, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunmuş aksiya respublikamızın digər rayonları ilə yanaşı bu rayonda da uğurla həyata keçirilmişdir.

Maarifləndirici aksiya zamanı tibbi maskalar paylanarkən əhali arasında xüsusi karantin rejimi qaydalarına dair maarifləndirici söhbətlər də aparılmışdır. Dövlət-biznes əməkdaşlığı çərçivəsində həyata keçirilən maarifləndirici aksiyada KOB dostları və könüllülər tərəfindən ticarət və xidmət obyektlərinə yaxın yerlərdə, parklarda vətəndaşlarla xüsusi karantin rejimi qaydalarına dair söhbətlər aparılmış və qısa vaxtda iki minə yaxın tibbi maska paylanmışdır.

Qeyd edək ki, hazırda rayonda koronavirusa qarşı mübarizə tədbirləri uğurla davam etdirlir. Rayon sakinlərinin bu dəhşətli virusa yoluxmasının minimuma endirilməsi istiqamətində qarşıya qoyulmuş tələblərə əməl edilməsinə ciddi nəzarət var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Paşinyana olan ümidlər tükənib

## Korrupsiya Ermənistanın tənəzzülünü sürətləndirir

*Əvvəli 1-ci səh.*

Qeyd olunur ki, vergi ödəyiciləri arasında keçirilən rəy sorğusu da bunu təsdiqləyir. Sahibkarlıqla məşğul olmaq istəyənlər küllü miqdarda rüşvət ödədiklərini deyirlər. Onların Paşinyan hökumətinə inamı yoxdur. Ölkədə toplanan verginin korrupsiyaya qurşanmış rəsmilər və məmurlar tərəfindən mənimsənilməsi ilə bağlı çoxsaylı fakt var. Rəyi soruşulanlar vergi qanunlarının vergi ödəyicisi olan iş adamlarına eyni dərəcədə tətbiq olunmadığını qeyd edirlər.

İtaliyanın "InTerris" analitik-xəbər portalı yazır ki, hazırda hakimiyyətdə olan qüvvələrin Ermənistanda son bir neçə onillikdə mövcud olmuş diktaturaya son qoyulduğunu iddia etməsinə baxmayaraq, ölkədə totalitar rejim hökm sürür və hakimiyyət yalnız özünə yaxın müəyyən çevrələrə dəstək verir. Baş nazir N.Paşinyanın öz siyasi rəqiblərini təqib etdiyini bildirən portal onun həyat yoldaşı Anna Akopyanın qeyri-qanuni kommersiya fəaliyyəti ilə də məşğul olmasına dair çoxsaylı məlumatların yayıldığını qeyd edir.

Vurğulanıb ki, hazırda bu ölkədə ən çox müzakirə olunan mövzulardan biri, Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın kürəkəni, Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyana qarşı cinayət işi ilə bağlıdır. Bildirilir ki, M.Minasyan N.Paşinyanı və həyat yoldaşı Anna Akopyanı 50 min ton metal qırıntısının Ermənistandan qeyri-qanuni ixracı və ticarətində, habelə beynəlxalq silah alverində və qeyri-qanuni almaz ticarəti ilə məşğul olmaqda, Ermənistanın dövlət xəzinəsini talan etməkdə günahlandırır. Qeyd olunub ki, aprelin sonlarında Rusiya Federasiyasının Təhlükəsizlik Xidməti tərəfindən Krasnodarda saxlanılmış qara bazar üçün 40 ton siqaret daşıyan və göyərtəsində Ermənistan nümayəndələri olan təyyarənin hazırkı hökumətin qeyri-qanuni beynəlxalq qaçaqmalçılıqla bağlılığından xəbər verir. Voronej vilayətində də N.Paşinyanla əlaqələndirilən külli miqdarda qanunsuz siqaretin ələ keçirildiyi bildirilir.

Ermənistana beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən ayrılan ianələr və humanitar yardımların bu ölkədəki ağır sosial problemləri və yoxsulluğu aradan qaldırılmayacağını qeyd edən portal təbii sərvətləri, dənizə çıxışı olmayan kiçik və yoxsul bir ölkənin sözügedən problemlərinin yeganə həlli yolunun qonşu dövlətlərlə münasibətlərin normallaşdırılmasında olduğunu bildirib.

Beləliklə, mövcud vəziyyət nümayiş etdirir ki, ölkə iqtisadiyyatını böhrana sürükləyən Paşinyan iqtidarı vəziyyətdən çıxış üçün daha çox xarici borclanmaya üstünlük verir. Bunun üçün beynəlxalq təşkilatlardan, maliyyə qurumlarından böyük miqdarda borclar alınır. Amma maraqlısı odur ki, həmin borcların faiz ödənişlərini vermək üçün digər təşkilatlardan kreditlər götürülür və bu minvalla alınan borcla başqa borcun faizləri ödənilir. Amma ilkin və sonrakı borcların əsas məbləğləri ilə bağlı heç bir ödəniş olmadığından borclar daha da artır, faizlər böyüyür. Bu hal ölkəni xaricdən daha çox asılı vəziyyətə salır. Eyni zamanda sosial-iqtisadi problemlərin miqyasını genişləndirir.

"İravnuk" qəzeti yazır ki, Ermənistan keçmiş sovet respublikaları arasında ən yoxsul dövlətdir. Xüsusi olaraq bildirilir ki, Ermənistanda korrupsiya gündən-günə artır, kasıbla varlı arasında ciddi fərq var: "Erməniləri ətrafda nəyin baş verdiyi maraqlandırmır. Onlar pandemiya şəraitində yalnız sağ qalmaq barədə düşünürlər. Yeni hökumət tərəfindən qəbul edilən təqaüd islahatları təqaüdçülərə kömək etməyib. Əksinə, işləyən insanların məvacibini pensiya sisteminə daha çox yönəltməklə onların gəlirlərini azaldıb. Tələbələr nüfuzlu universitetlərə yalnız rüşvət verərək girirlər. Onlar bu yolla dərslərdə də iştirak etməyə bilirlər. Pul səhiyyə sahəsində də "danışır". Əgər sənin əməliyyata və ya ciddi müalicəyə ehtiyacın varsa, yenə rüşvət vermək üçün pulun olmalıdır. Əks halda, sən uzun müddət yaşaya bilməzsən".

Belə vəziyyətdə Nikol Paşinyanın Ermənistanda hansısa inkişafdan danışmağı sadəcə, gülüş doğurur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından daha 221 nəfər sağalıb, 103 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 221 nəfər sağalıb, 103 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 34 min 18 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 31 min 490 nəfər müalicə olunaraq sağalıb, 504 nəfər vəfat edib. Aktiv xəstə sayı 2024 nəfərdir. Ötən müddət ərzində 820 min 2 test aparılıb. Bugünkü test sayı isə 7969-dur.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2020-ci il üçün *kotirovka sorğusu elan edir*

Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:
"Peugeot Khazar" markalı nəqliyyat vasitələrinin cari təmir xərcləri üzrə.
Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 28 avqust 2020-ci il (saat 13:00) tarixədək qəbul olunur.

***Tələb olunan sənədlər:***

- Nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);
- Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.

**Ünvan: AZ1005 Bakı şəh. Səbail rayonu H.Z.Tağıyev küç. ev 13. Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.**
**Telefon: (+99451) 207-59-12, (+99412) 497-41-70**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin 2 saylı Bakı DOST Mərkəzinin inzibati binasında quraşdırılmış 1 ədəd AUXE sərnişin liftinin fasiləsiz və problemsiz işləməsi üçün aylıq göstəriləcək texniki xidmətin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 20 avqust 2020-ci il saat 12:00-dək Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım küçəsi, 30 B ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Zərflər 20 avqust 2020-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 2 saylı Bakı DOST Mərkəzinin Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım küçəsi, 30 B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Telefon:012-525-50-26.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsi aşağıdakı malların satın alınması məqsədilə *təkliflər sorğusu elan edir*

Daxili İşlər Nazirliyinin Tibb İdarəsinə bilavasitə tabe olan A.N.Heydərov adına Respublika hospitalında oksigen generatorunun və tibbi tullantıların utilizasiya avadanlığının alınması.
Maraqlanan təşkilatlar (012) 562-83-15 nömrəli telefonla əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusu 21 avqust 2020-ci il saat 15:00-da keçiriləcəkdir.
İştirak etmək üçün sənədlər 20 avqust 2020-ci il saat 17:00-dək qəbul olunur.
**Ünvan: Bakı şəhəri, Azadlıq prospekti 161**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsi tərəfindən "Birdəfəlik plastik yemək qabı (boşqab, çəngəl, qaşıq və bıçaq) dəstinin satın alınması" 24 iyul 2020-ci il saat 16:00-da keçirilmiş təkliflər sorğusu proseduru nəticəsində qalib olmuş şirkətlə müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

09 aprel 2020-ci ildə etender.gov.az saytında və "Azərbaycan" qəzetinin 10 aprel 2020-ci il tarixli nömrəsində Dövlət Sosial Müdafiə Fondunun aparatına və yerli orqanlarına inventarların satın alınması üzrə elan edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" qanunun 22.1-1, 36.6, 38.8.2-ci maddəsinə əsasən baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

Bununla əlaqədar olaraq qalib təşkilat -QARDAŞLAR MEBEL-3 MMC ilə imzalanmış müqavilə qüvvədən düşmüş hesab edilir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 01 iyul və 27 iyul 2020-ci il tarixli saylarında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına nəqliyyat vasitələri üçün turbokompressorların təmiri işinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **27 avqust 2020-ci il saat 18:00-a**, təkliflərin açılışı isə **28 avqust 2020-ci il saat 18:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin müdiri Ağaəli Mirzəyev
(agali.mirzeyev@azersu.az +99412 431-47-67 (2246).

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən, Nəqliyyat vasitəsinin icarəsinin satın alınması məqsədilə 24.06.2020-ci il tarixdə keçirilmiş kotirovka sorğusu prosedurunun nəticəsinə əsasən "Qala Express" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

## *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
41,60 (qırx bir manat altmış qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 05 may 2020-ci il tarixdə vahid satınalma portalında elan edilmiş "Əməyin təhlükəsizliyi məqsədilə montyor caynaq dəstlərinin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "Maybo" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Maybo" MMC arasında 04 avqust 2020-ci il tarixli satınalma müqaviləsi izmalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 05 may 2020-ci il tarixdə vahid satınalma portalında elan edilmiş "İstehsalat zəruriyyəti ilə tələb olunan 5000 ədəd 6,5 metr, 650 ədəd 8,5 metr hündürlüklü akril boya ilə boyanmış dəmir dirəklərin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "Aztelmaş" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Aztelmaş" MMC arasında 28 iyul 2020-ci il tarixli satınalma müqaviləsi izmalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 06 may 2020-ci il tarixdə vahid satınalma portalında elan edilmiş "Rabitə xətt təsərrüfatının tikintisi və istismarı üçün tələb olunan mal-materialların (KKQ-1, konsol, kronşteyn, beton örtük və s.) satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi fiziki şəxs Hüseyn Sabir oğlu Abdullayev müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə fiziki şəxs Hüseyn Sabir oğlu Abdullayev arasında 27 iyul 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzi 2 ədəd KONE sərnişin liftlərinin fasiləsiz və problemsiz işləməsi üçün 12 aylıq texniki xidmətin göstərilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 20 avqust 2020-ci il saat 12:00-dək Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. (telefon: 012 525-50-26) Zərflər 20 avqust 2020-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 3 saylı Bakı DOST mərkəzinin AZ1029 Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

*Tender komissiyası*

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Azərbaycan Respublikası Milli Məclisinin deputatı Qüdrət Həsənquliyevə əzizi

**BƏHRUZ KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Əməkdar jurnalist, "Xalq qəzeti"nin Qarabağ üzrə bölgə müxbiri

**ZİYƏDDİN SULTANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin professoru Həsən Sadıqova həyat yoldaşı

**TAMİLLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7274
Sifariş 1914
Qiyməti 40 qəpik